# Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyəti

## Maliyyə Hesabatları

31 dekabr 2013-cü il tarixində başa çatan il üzrə
Müstəqil Auditorun Hesabatı ilə birlikdə

**Holcim (Azərbaycan)**
**Açıq Səhmdar Cəmiyyəti**

Maliyyə Hesabatları

31 dekabr 2013-cü ildə başa çatan il üzrə

**Mündəricat**


**Müstəqil Auditorun Hesabatı**

Maliyyə Vəziyyəti haqqında Hesabat ........ 2
Ümumi Gəlir haqqında Hesabat ........ 3
Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat ........ 4
Kapitalda Dəyişikliklər haqqında Hesabat ........ 5
Maliyyə Hesabatları ilə bağlı Qeydlər ........ 6-36

## ÜMUMİ MƏLUMAT

### RƏSMİ ÜNVAN VƏ ƏSAS FƏALİYYƏT YERİ

Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyəti
Sahil qəsəbəsi, Salyan şossesi
AZ-1083, Bakı, Azərbaycan

### AUDİTOR

Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Azərbaycan Respublikasındakı filial
Port Baku Tauers Biznes Mərkəzi,
Cənub Qülləsi, 9-cu mərtəbə
Neftçilər prospekti 153
AZ-1010, Bakı, Azərbaycan

### VERGİ MƏSLƏHƏTÇİLƏRİ

Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Azərbaycan Respublikasındakı filialı

PraysvaterhausKupers Audit Azərbaycan MMC
Ləndmark Ofis Plaza III, 12-ci mərtəbə,
Nizami küçəsi, 90A
AZ-1010, Bakı, Azərbaycan

### HÜQUQ MƏSLƏHƏTÇİLƏRİ

Baker and McKenzie CIS Ltd,
Azərbaycan filialı,
Nizami küçəsi, 96
Ləndmark Binası
AZ-1010, Bakı, Azərbaycan

PraysvaterhausKupers Audit Azərbaycan MMC

### ƏSAS BANKLAR

"Azərbaycan Beynəlxalq Bankı" ASC
Nizami küçəsi, 67
AZ-1005, Bakı, Azərbaycan

"Bank Standard" QSC
Azərbaycan prospekti, 4
AZ-1005, Bakı, Azərbaycan

"Yapi Kredi Bank Azərbaycan" QSC
Cəfər Cabbarlı küçəsi, 32/12
AZ-1065, Bakı, Azərbaycan

"PAŞA Bank" ASC
Y. Məmmədəliyev küçəsi, 15
AZ-1005, Bakı, Azərbaycan

"Ekspressbank" ASC
Əcəmi Naxçıvani küçəsi, 21
AZ-1130, Bakı, Azərbaycan

Ernst & Young Holdings (CIS) B.V.
Port Baku Towers Business Centre
South Tower, 9th floor
153, Neftchilar Ave.
Baku, AZ1010, Azerbaijan
Tel: +994 (12) 490 7020
Fax: +994 (12) 490 7017
www.ey.com/az

Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Port Baku Tauers Biznes Mərkəzi
Cənub Qülləsi, 9-cu mərtəbə
Neftçilər prospekti, 153
Bakı, AZ1010, Azərbaycan
Tel: +994 (12) 490 7020
Faks: +994 (12) 490 7017

## Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasına Müstəqil Auditorun Hesabatı

Biz Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyətinin ("Şirkət") 31 dekabr 2013-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə ümumi gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsipləri və digər izahedici qeydlərin icmalından ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

### *Maliyyə hesabatları üçün rəhbərliyin məsuliyyəti*

Rəhbərlik hazırkı maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin lazım bildiyi daxili nəzarət üzrə məsuliyyət daşıyır.

### *Auditorun məsuliyyəti*

Bizim vəzifəmiz apardığımız audit əsasında həmin maliyyə hesabatları üzrə rəy ifadə etməkdir. Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparmışıq. Bu standartlar bizdən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mühakiməsindən, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarında əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsindən asılıdır. Bu risklər qiymətləndirilərkən auditor müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisənin maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsinə aid olan daxili nəzarət elementlərini nəzərə alır, lakin bu zaman müəssisənin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmür. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin münasibliyinin və rəhbərlik tərəfindən edilmiş ehtimalların məntiqiliyinin qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

### *Rəy*

Bizim fikrimizcə, maliyyə hesabatları 31 dekabr 2013-cü il tarixinə Şirkətin maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

Ernst & Young Holdings (CIS) B.V.

18 fevral 2014-cü il

A member firm of Ernst & Young Global Limited

## Holcim (Azərbaycan) ASC
## Maliyyə Vəziyyəti haqqında Hesabat
*(Məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| AKTİVLƏR | Qeydlər | 31 dekabr 2013 | 31 dekabr 2012 |
|---|---|---|---|
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak, qurğu və avadanlıqlar, xalis | 3 | **359,917,304** | 364,339,054 |
| Qeyri-maddi aktivlər | 4 | **4,500,000** | 4,500,000 |
| Uzunmüddətli əvvəlcədən ödəmələr | 6 | **1,613,109** | 1,653,987 |
| Uzunmüddətli mal-material ehtiyatları | 7 | **4,891,391** | 4,925,575 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **370,921,804** | 375,418,616 |
| **Cari aktivlər** | | | |
| Mal-material ehtiyatları, xalis | 7 | **10,796,429** | 9,085,341 |
| Ticarət və digər debitor borcları, xalis | 8 | **6,066,855** | 1,032,630 |
| Vergilər üzrə debitor borcları | 9 | **820,377** | 1,098,440 |
| Əvvəlcədən ödəmələr və avanslar | 6 | **1,529,874** | 810,318 |
| Əlaqəli tərəflərdən alınacaq məbləğ | 17 | **155,134** | 173,455 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 10 | **4,550,630** | 25,598,644 |
| **Cəmi cari aktivlər** | | **23,919,299** | 37,798,828 |
| **CƏMİ AKTİVLƏR** | | **394,841,103** | 413,217,444 |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 11 | **31,812,880** | 31,812,880 |
| Əlavə ödənilmiş kapital | 11 | **3,301,937** | 3,301,937 |
| Bölüşdürülməmiş mənfəət | | **243,911,735** | 192,323,667 |
| **Cəmi kapital** | | **279,026,552** | 227,438,484 |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Əlaqəli tərəfə ödəniləcək kreditlər | 12, 17 | **41,776,115** | 68,088,869 |
| Üçüncü tərəflərə ödəniləcək kreditlər | 12 | **–** | 17,878,951 |
| Hesablanmış öhdəliklər | | **865,681** | 1,040,366 |
| Ehtiyatlar | 13 | **4,971,317** | 3,649,291 |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 5 | **14,379,106** | 11,333,612 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **61,992,219** | 101,991,089 |
| **Cari öhdəliklər** | | | |
| Ticarət kreditor borcları | 14 | **4,559,268** | 2,260,539 |
| Digər ödəniləcək qısamüddətli kreditlər | 12 | **100,000** | 100,000 |
| Əlaqəli tərəfə ödəniləcək kreditlər | 12, 17 | **17,621,238** | 7,729,503 |
| Üçüncü tərəflərə ödəniləcək kreditlər | 12 | **–** | 43,806,705 |
| Əlaqəli tərəflərə ödəniləcək hesablanmış öhdəliklər | 17 | **3,927,463** | 1,802,780 |
| Hesablanmış öhdəliklər | 15 | **14,253,395** | 18,837,223 |
| Əmək haqqı və əlaqəli vergilər | | **54,198** | 23,106 |
| Ödəniləcək dividendlər | | **17,782** | 17,782 |
| Ödəniləcək mənfəət vergisi | | **5,546,336** | – |
| Müştərilərdən alınmış avanslar | | **1,259,027** | 2,062,049 |
| Ehtiyatlar | 13 | **6,483,625** | 7,148,184 |
| **Cəmi cari öhdəliklər** | | **53,822,332** | 83,787,871 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **394,841,103** | 413,217,444 |

Şirkətin rəhbərliyi adından 18 fevral 2014-cü ildə imzalayan və buraxılmasına icazə verənlər:

| | |
|---|---|
| **Rossen Papazov** | **Baş Direktor** |
| **Oliver Vilke** | **Maliyyə Direktoru** |
| **Dilbər Sultanova** | **Baş Mühasib** |

*Əlavə edilən qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir.*

## Holcim (Azərbaycan) ASC
## Ümumi Gəlir haqqında Hesabat
*(Məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabrda başa çatan il 2013 | 2012 |
|---|---|---|---|
| Malların satışı | | **176,500,152** | 156,719,836 |
| Satışın maya dəyəri | **20** | **(69,033,715)** | (67,399,054) |
| **Ümumi mənfəət** | | **107,466,437** | 89,320,782 |
| Çatdırılma xərcləri | **21** | **(16,542,252)** | (15,589,193) |
| Ümumi və inzibati xərclər | **22** | **(14,741,274)** | (9,745,501) |
| Əmlak, qurğu və avadanlığın silinməsi üzrə gəlir/ (zərər) | | **72,198** | (890,414) |
| Satış xərcləri | | **(1,843,338)** | (1,854,178) |
| Məzənnə fərqindən zərər | | **(2,728,308)** | (2,409,715) |
| **Əməliyyat mənfəəti** | | **71,683,463** | 58,831,781 |
| Maliyyə gəliri | | **91,806** | 807,973 |
| Maliyyə xərci | **23** | **(6,647,619)** | (8,534,892) |
| **Vergidən əvvəl mənfəət** | | **65,127,650** | 51,104,862 |
| Mənfəət vergisi xərci | **5** | **(13,539,582)** | (12,996,521) |
| **İl üzrə mənfəət** | | **51,588,068** | 38,108,341 |
| Digər ümumi gəlir | | **-** | - |
| **Cəmi ümumi gəlir** | | **51,588,068** | 38,108,341 |

*Əlavə edilən qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir.*

## Holcim (Azərbaycan) ASC
## Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat
*(Məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabrda başa çatan il 2013 | 2012 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti** | | | |
| Vergidən əvvəl mənfəət | | **65,127,650** | 51,104,862 |
| Vergidən əvvəl mənfəəti xalis pul vəsaitlərinin hərəkəti ilə üzləşdirmək məqsədilə aparılmış qeyri-nağd təshihlər: | | | |
| Köhnəlmə | | **16,863,680** | 13,893,680 |
| Maliyyə gəliri | | **(91,806)** | (807,973) |
| Maliyyə xərci | 23 | **6,198,373** | 8,346,845 |
| Əmlak, qurğu və avadanlığın silinməsi üzrə (gəlir)/zərər | | **(72,198)** | 890,414 |
| Məzənnə fərqindən zərər | | **2,728,308** | 2,409,715 |
| Ləğv etmə xərcləri | 13 | **-** | 4,220,000 |
| Mükafatlar üçün ehtiyat | 13 | **2,591,381** | 2,434,841 |
| Digər vergi xərcləri | 13 | **346,380** | 461,121 |
| Xəsarət halları üçün ehtiyat | | **872,106** | 98,992 |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat mənfəəti** | | **94,563,874** | 83,052,497 |
| Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklər: | | | |
| Mal-material ehtiyatları | | **(1,636,026)** | 1,402,079 |
| Ticarət və digər debitor borcları | | **(5,034,225)** | 560,696 |
| Əvvəlcədən ödəmələr və avanslar | | **(719,556)** | 388,849 |
| Əlaqəli tərəflərdən alınacaq məbləğ | | **18,321** | (173,455) |
| Vergilər üzrə debitor borcları | | **34,670** | (394,149) |
| Ticarət və digər kreditor borcları | | **2,294,749** | (2,534,033) |
| Əmək haqqı və əlaqəli vergilər | | **31,092** | 9,827 |
| Hesablanmış öhdəliklər | | **(792,299)** | 3,986,573 |
| Əlaqəli tərəflərə ödəniləcək hesablanmış öhdəliklər | | **2,125,072** | (132,668) |
| Müştərilərdən alınmış avanslar | | **(803,022)** | 298,071 |
| Ehtiyatlar | | **(3,425,690)** | (2,035,314) |
| **Əməliyyatlardan əldə edilən pul vəsaitləri** | | **86,656,960** | 84,428,973 |
| Ödənilmiş mənfəət vergisi | | **(4,704,359)** | (9,655,959) |
| Alınmış faiz | | **91,806** | 807,973 |
| Ödənilmiş faiz | | **(4,111,958)** | (8,657,053) |
| **Əməliyyat fəaliyyəti üzrə təmin edilmiş xalis pul vəsaitlərinin hərəkəti** | | **77,932,449** | 66,923,934 |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Əmlak, qurğu və avadanlıqların alınması | | **(16,076,902)** | (39,292,828) |
| Əmlak, qurğu və avadanlıqların satılmasından daxilolmalar | | **98,500** | 1,572 |
| Qeyri-maddi aktivlərin alınması | | **-** | (2,500,000) |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilmiş xalis pul vəsaitlərinin hərəkəti** | | **(15,978,402)** | (41,791,256) |
| **Maliyyələşdirmə fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Faiz hesablanan kreditlərin qaytarılması | | **(83,002,061)** | (55,262,877) |
| Faiz hesablanan kreditlərdən daxilolmalar | | **-** | 8,412,000 |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə istifadə edilmiş xalis pul vəsaitlərinin hərəkəti** | | **(83,002,061)** | (46,850,877) |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis azalma | | **(21,048,014)** | (21,718,199) |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ilin əvvəlinə | 10 | **25,598,644** | 47,316,843 |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ilin sonuna** | 10 | **4,550,630** | 25,598,644 |

*Əlavə edilən qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir.*

## Holcim (Azərbaycan) ASC
## Kapitalda Dəyişikliklər haqqında Hesabat
*(Məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Nizamnamə kapitalı | Əlavə ödənilmiş kapital | Bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|---|
| **31 dekabr 2011-ci il tarixinə qalıq** | 31,812,880 | 3,301,937 | 154,215,326 | 189,330,143 |
| İl üzrə mənfəət | - | - | 38,108,341 | 38,108,341 |
| **31 dekabr 2012-ci il tarixinə qalıq** | 31,812,880 | 3,301,937 | 192,323,667 | 227,438,484 |
| **İl üzrə mənfəət** | **-** | **-** | **51,588,068** | **51,588,068** |
| **31 dekabr 2013-cü il tarixinə qalıq** | **31,812,880** | **3,301,937** | **243,911,735** | **279,026,552** |

*Əlavə edilən qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir.*

## 1. Ümumi məlumat

Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyəti (Holcim (Azərbaycan) ASC və ya "Şirkət"), keçmiş "Qaradağ Sement" Açıq Səhmdar Cəmiyyəti, Azərbaycan Respublikasının qanunları əsasında 7 sentyabr 1999-cu il tarixində Azərbaycan Respublikası Əmlak Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən keçirilmiş investisiya tenderi nəticəsində təsis edilmişdir.

Şirkətin əsas səhmdarı və yekun sahibi İnvestisiya Tenderində satılmış "Qaradağ Sement" Açıq Səhmdar Cəmiyyətində səhmlərin Satışı və Alışı haqqında Müqaviləyə ("Satış və Alış Müqaviləsi") uyğun olaraq onun 86%-ni almış Holcim Ltd. ("Holcim"), keçmiş Holderbankdır. Satış və Alış Müqaviləsi Azərbaycan Respublikası Əmlak Məsələləri üzrə Dövlət Komitəsi ilə Holderbank arasında 7 sentyabr 1999-cu il tarixində imzalanmışdır.

21 dekabr 2006-cı il tarixli Satış və Alış Müqaviləsinə uyğun olaraq Holcim Şirkətin səhmlərinin 10%-ni Avropa Yenidənqurma və İnkişaf Bankına ("AYİB") satmışdır. Daha sonra 14 fevral 2008-ci il tarixində Holcim Şirkətin səhmlərinin 10%-ni Azərbaycan İnvestisiya Şirkətinə ("AİŞ") satmışdır.

31 dekabr 2013-cü il və 31 dekabr 2012-ci il tarixlərində Holcim Şirkətin dövriyyədə olan səhmlərinin 66%-nə sahib olmuşdur. Qeyd 11-də göstərildiyi kimi qalan səhmlər fiziki şəxslərə (əsasən, Şirkətin əməkdaşları) və hüquqi şəxslərə, o cümlədən Holcimin törəmə müəssisəsi olan Holcim Auslandbeteiligungs GmbH ("HAB") şirkətinə məxsusdur.

20 aprel 2012-ci ildə səhmdarların qərarına əsasən Şirkətin hüquqi adı "Qaradağ Sement" Açıq Səhmdar Cəmiyyətindən Holcim (Azərbaycan) ASC-yə dəyişdirilmişdir.

Şirkətin əsas fəaliyyəti sementin və klinkerin istehsalı və satışıdır. Onun rəsmi ünvanı və fəaliyyətini apardığı yer Azərbaycan Respublikası, Bakı, Sahil qəsəbəsi, Salyan şossesidir.

## 2. Mühüm mühasibat uçotu prinsipləri

*Hesabatların tərtibatının əsası*

Şirkətin maliyyə hesabatları Mühasibat Uçotunun Beynəlxalq Standartları Komitəsi ("MUBSK") tərəfindən buraxılmış Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") əsasında hazırlanmışdır.

Aşağıda açıqlanan mühasibat uçotu prinsiplərində təsvir olunan hallar istisna olmaqla, maliyyə hesabatları ilkin maya dəyəri prinsipi əsasında hazırlanmışdır.

*Mühasibat uçotu prinsiplərində dəyişikliklər*

Şirkətin 1 yanvar 2013-cü ildə qəbul etdiyi standartlara edilən aşağıdakı yeni düzəlişlər istisna olmaqla, qəbul olunmuş mühasibat uçotu prinsipləri əvvəlki maliyyə ilinin prinsipləri ilə uyğunluq təşkil edir:

*13 saylı MHBS "Ədalətli dəyərin ölçülməsi"*
13 saylı MHBS bütün ədalətli dəyər ölçülmələrinə MHBS-ə uyğun olan vahid qayda tətbiq edir. 13 saylı MHBS müəssisədə ədalətli dəyərin nə vaxt istifadə ediləcəyini dəyişmir və yalnız ədalətli dəyərin MHBS əsasında necə ölçüləcəyini müəyyən edir. 13 saylı MHBS-dəki göstərişə uyğun olaraq Şirkət ədalətli dəyərin ölçülməsi prinsiplərinə, xüsusilə də öhdəliklərin ədalətli dəyərinin ölçülməsində istifadə edilən öhdəliklərin pozulması riski kimi giriş məlumatlarına yenidən baxmışdır. Bundan əlavə, 13 saylı MHBS əlavə məlumatların açıqlanmasını tələb edir.

13 saylı MHBS-in tətbiqi Şirkətin ədalətli dəyər ölçmələrinə əhəmiyyətli təsir göstərməmişdir. Əlavə məlumatların açıqlanması tələb olunarsa, həmin məlumatlar ədalətli dəyəri müəyyən edilmiş aktivlərə və öhdəliklərə aid olan xüsusi qeydlərdə təqdim edilir.

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

*Mühasibat uçotu prinsiplərində dəyişikliklər (davamı)*

*1 saylı Mühasibat Uçotunun Beynəlxalq Standartları (MUBS) "Müqayisəli məlumata dair tələbin aydınlaşdırılması" (Düzəliş)*
1 saylı MUBS-a düzəliş könüllü əlavə müqayisəli məlumat və minimal tələb olunan müqayisəli məlumat arasındakı fərqi izah edir. Müəssisə minimal tələb olunan müqayisəli dövrdən əlavə könüllü olaraq müqayisəli məlumat təqdim etdikdə maliyyə hesabatlarının əlaqəli qeydlərinə müqayisəli məlumat daxil edilməlidir. Düzəliş göstərir ki, maliyyə hesabatlarındakı maddələrin retrospektiv şəkildə yenidən hesablanması və ya yenidən təsnif edilməsi nəticəsində təqdim edilmiş açılış maliyyə vəziyyəti haqqında hesabatların əlaqəli qeydlərində müqayisəli məlumat mütləq təqdim edilməli deyil. Düzəliş yalnız məlumatın təqdim edilməsinə aiddir və Şirkətin maliyyə vəziyyətinə və ya nəticələrinə təsir göstərmir.

Digər düzəlişlər Şirkətin mühasibat uçotu prinsiplərinə, maliyyə vəziyyətinə və ya nəticələrinə təsir göstərməmişdir:

7 saylı MHBS-ə Düzəlişlər *"Məlumatların açıqlanması – Maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin qarşılıqlı əvəzləşdirilməsi"*;

10 saylı MHBS *"Konsolidasiya edilmiş maliyyə hesabatları"* və 27 saylı MUBS *"Ayrı maliyyə hesabatları"*;

11 saylı MHBS *"Birgə layihələr"* və 28 saylı MUBS *"Asılı müəssisələrə və birgə müəssisələrə investisiyalar"*;

12 saylı MHBS *"Digər müəssisələrdə iştirak haqqında məlumatın açıqlanması"*;

1 saylı MUBS-a Düzəlişlər *"Digər Ümumi Gəlir maddələrinin təqdim edilməsi"*;

19 saylı MUBS *"İşçilərin mükafatlandırılması"* (2011-ci ildə yenidən baxılmışdır);

Beynəlxalq Maliyyə Hesabatlarının Şərhi Komitəsinin ("BMHŞK") 20 saylı şərhi *"Karxananın (mədənin) istehsal mərhələsində tullantıdan ayırma məsrəfləri"*.

*Buraxılmış, lakin, hələ qüvvəyə minməmiş yeni standart və düzəlişlər*

Buraxılmış, lakin, Şirkətin maliyyə hesabatlarının buraxıldığı tarixə qədər qüvvəyə minməmiş standartlar aşağıda göstərilir. Aşağıda göstərilmiş bu standart və şərhlərə Şirkətin gələcək dövrlərdə açıqlamalarına, maliyyə vəziyyətinə və ya nəticələrinə təsir göstərməsi əsaslı olaraq gözlənilən standart və şərhlər daxildir. Şirkət bu standartlar qüvvəyə mindikdə müvafiq olanları qəbul etmək niyyətindədir.

- *9 saylı MHBS "Maliyyə alətləri"*
  Buraxılmış 9 saylı MHBS MUBSK-in bu standartın əvəz edilməsi üzrə işinin ilk mərhələsidir və 39 saylı MUBS-da müəyyən edilmiş maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin təsnifatı və ölçülməsinə tətbiq edilir. Standart ilkin olaraq 1 yanvar 2013-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlərə tətbiq edilirdi, lakin 2011-ci ilin dekabr ayında buraxılmış *"9 saylı MHBS-in icbari qüvvəyə minməsi tarixi və keçid haqqında açıqlamalar"* adlı 9 saylı MUBS-a düzəlişlər icbari qüvvəyə minmə tarixini 1 yanvar 2015-ci il tarixinə keçirdi. Sonrakı mərhələlərdə MUBSK hedcinqin uçotu və maliyyə aktivlərinin dəyərsizləşməsi kimi məsələlərə baxacaqdır. 9 saylı MHBS-in birinci mərhələsinin qəbul edilməsi Şirkətin maliyyə aktivlərinin təsnifatı və ölçülməsinə təsir göstərəcək, lakin maliyyə öhdəliklərinin təsnifatına və ölçülməsinə yəqin ki, təsir göstərməyəcəkdir. Bütün mərhələləri daxil edən yekun standart buraxılanda Şirkət bu düzəlişin təsirini digər mərhələlərin təsiri ilə birlikdə kəmiyyət baxımından müəyyən edəcəkdir.

- *İnvestisiya müəssisələri (10 saylı MHBS, 12 saylı MHBS və 27 saylı MUBS-a düzəlişlər):*
  Bu düzəlişlər 1 yanvar 2014-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlərə tətbiq edilir və 10 saylı MHBS əsasında investisiya müəssisəsi anlayışına uyğun olan müəssisələr üçün konsolidasiya tələbi ilə bağlı bir istisnanı nəzərdə tutur. Konsolidasiya ilə bağlı istisnaya görə investisiya müəssisələri törəmə müəssisələrini ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan aktivlər kimi uçota almalıdır. Düzəlişin Şirkətə aid olması ehtimal edilmir.

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

*Buraxılmış, lakin, hələ qüvvəyə minməmiş yeni standart və düzəlişlər (davamı)*

- *32 saylı MUBS-a Düzəlişlər "Maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin qarşılıqlı əvəzləşdirilməsi"* Bu düzəlişlərdə "hazırda qanuni qüvvəyə minmiş qarşılıqlı əvəzləşdirmə hüququna malikdir" sözləri izah edilir. Eyni zamanda düzəlişlər sinxron olmayan ümumi hesablaşma mexanizmlərini tətbiq edən hesablaşma sistemlərinə (məsələn, mərkəzi hesablaşma sistemləri) qarşılıqlı əvəzləşdirmə meyarının tətbiqi qaydasını izah edir. Düzəlişlərin Şirkətin maliyyə vəziyyətinə və ya nəticələrinə təsir göstərməsi gözlənilmir. Düzəlişlər 1 yanvar 2014-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlərə tətbiq edilir.

- *Qeyri-maliyyə aktivləri üçün bərpa edilə bilən məbləğ haqqında məlumatların açıqlanması – 36 saylı MUBS-a Düzəlişlər "Aktivlərin dəyərsizləşməsi":*
  Bu düzəlişlər 36 saylı MHBS əsasında açıqlanması tələb edilən məlumatlara 13 saylı MHBS-in gözlənilməyən təsirini aradan götürür. Bundan əlavə bu düzəlişlər dövr ərzində dəyərsizləşmə zərəri tanınmış və ya ləğv edilmiş aktivlərin və ya pul vəsaitlərini yaradan vahidlərin ("PVYV") bərpa edilə bilən məbləğlərinin açıqlanmasını tələb edir. Bu düzəlişlər 1 yanvar 2014-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlərə retrospektiv şəkildə tətbiq edilir, 13 saylı MHBS-in tətbiq edilməsi şərti ilə daha erkən tətbiqə də yol verilir. Şirkət gözləyir ki, bu düzəlişlər gələcək maliyyə hesabatlarına əhəmiyyətli maliyyə təsiri göstərməyəcək.

- *39 saylı MUBS-a Düzəlişlər "Törəmə alətlərin yeniləşdirilməsi və hedc uçotunun davam etdirilməsi":*
  Bu düz Düzi maliyyz tiləşdirilməsi və hedc uçotunun davam etdirilməsi"şlayan illik dövrlərə retrospektiv şəhedcinq uçotunun dayandırılması tm və hedc uçotunun davam etdirilməsi"şlayan illik dövrlərə retrospektiv şəkildə tətbiq edilir, 13 saylı MHBS-in tətbiq edilməsi şərti ilə daha erkən tətbiqə də yol verilir.

- *21 saylı BMHŞK şərhi "Yığımlar":*
  21 saylı BMHŞK şərhi izah edir ki, müəssisə yığımla bağlı öhdəliyi müvafiq qanunvericiliyin müəyyən etdiyi ödənişə səbəb olan əməliyyat baş verdiyi anda tanımalıdır. Bundan əlavə, şərhdə izah edilir ki, minimal hədd göstəricisinə bağlı olan yığım öhdəliyi müəyyən edilmiş həmin minimal hədd göstəricisinə çatdıqdan əvvəl tanınmalı deyildir. 21 saylı BMHŞK şərhi 1 yanvar 2014-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlərə tətbiq edilir. Şirkət gözləyir ki, 21 saylı BMHŞK şərhi gələcək maliyyə hesabatlarına əhəmiyyətli maliyyə təsiri göstərməyəcək.

*Mühüm mühasibat uçotu mühakimələri, qiymətləndirmələri və fərziyyələri*

Maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanması rəhbərlikdən maliyyə hesabatlarında göstərilən gəlirlərin, xərclərin, aktivlərin və öhdəliklərin məbləğlərinə və müvafiq qeydlərinə təsir göstərən mühakimələrin, qiymətləndirmələrin və fərziyyələrin edilməsini tələb edir. Rəhbərlik, müntəzəm olaraq, öz qiymətləndirmələrini, o cümlədən potensial öhdəliklərlə bağlı olanları qiymətləndirir. Rəhbərlik öz qiymətləndirmələrini mövcud şəraitdə məntiqi hesab olunan, bazara xas olan müxtəlif fərziyyələrə əsaslandırır. Bunların nəticələri digər mənbələrdən asanlıqla əldə edilə bilməyən aktivlərin qalıq dəyərləri haqqında fərziyyələrin edilməsi üçün əsas təşkil edir. Faktiki nəticələr müxtəlif fərziyyələrdən və ya şəraitlərdən asılı olaraq bu qiymətləndirmələrdən əhəmiyyətli şəkildə fərqlənə bilər.

Gələcəklə bağlı əsas fərziyyələr və Maliyyə Vəziyyəti haqqında Hesabatın tarixinə növbəti maliyyə ilində aktivlərin və öhdəliklərin qalıq məbləğlərinə əhəmiyyətli düzəlişin edilməsinə səbəb ola biləcək əhəmiyyətli riskə malik olan qiymətləndirmə qeyri-müəyyənliyinin digər əsas mənbələri aşağıda müzakirə olunur.

<u>Ticarət debitor borcları</u>
Ticarət debitor borcları ümidsiz olması müəyyən edilmiş hesablar üçün ehtiyatı çıxmaqla müəyyən edilir. Rəhbərlik tərəfindən ticarət debitor borclarının təhlili və həmin hesab qalıqlarının vaxtının keçməsi ehtimalının qiymətləndirilməsinə əsasən Şirkət ümidsiz borclar üçün ehtiyat ayırır.

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

*Mühüm mühasibat uçotu mühakimələri, qiymətləndirmələri və fərziyyələri (davamı)*

Köhnəlmiş və ləng hərəkət edən mal-material ehtiyatları
Şirkət hər maliyyə vəziyyəti haqqında hesabat tarixində mal-material ehtiyatlarının balans dəyərini nəzərdən keçirir və lazım olarsa köhnəlmiş və ləng hərəkət edən mal-material ehtiyatlarının məbləği qədər azaldır. Bu məbləğ köhnəlmiş mal-materialların dəyərinə və istifadənin tezliyindən asılı olaraq ləng hərəkət edən mal-material ehtiyatlarına tətbiq edilən faiz həddinə əsasən qiymətləndirilir.

Əmlak, qurğu və avadanlıqların istifadə müddəti
Şirkət əmlak, qurğu və avadanlıqların qalan istifadə müddətini ən azından hər maliyyə ilinin sonunda qiymətləndirir. Yenilənmiş ehtimallar əvvəlki qiymətləndirmələrdən fərqlənirsə, dəyişikliklər 8 saylı *"Mühasibat uçotu siyasəti, mühasibat uçotu qiymətləndirmələrində dəyişikliklər və səhvlər"* MUBS-a uyğun olaraq mühasibat uçotu qiymətləndirməsində dəyişiklik kimi uçota alınır.

Uzunmüddətli ehtiyatlar
İşçilərə xəsarət ödənişləri üçün ehtiyatın ədalətli dəyərinin qiymətləndirilməsində rəhbərlik əmək qabiliyyətini itirmiş əməkdaşların ömürlərinin uzunluğu üçün Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarından istifadə edir və gələcəkdə proqnozlaşdırılan inflyasiyanı və gələcək ödənişlərin vaxtını nəzərə alaraq əmək haqqı səviyyələrini artırır.

Sahənin bərpa edilməsi və əmək qabiliyyətini itirmiş işçilərə xəsarət ödənişləri üçün ehtiyatın cari dəyərinin qiymətləndirilməsində rəhbərlik risksiz faiz dərəcəsindən istifadə edir. Bu dəyər İsveçrə risksiz dərəcəsinə Azərbaycan Respublikasında və İsveçrədə uzunmüddətli inflyasiya dərəcələri arasındakı fərqi əlavə etməklə hesablanır.

Vergilər
Mürəkkəb vergi qaydalarının şərhi, vergi qanunlarında dəyişikliklər, eləcə də gələcək vergi tutulan gəlirin məbləği və vaxtı ilə bağlı qeyri-müəyyənliklər mövcuddur. İşgüzar əlaqələrin müxtəlifliyini və mövcud müqavilələrin uzunmüddətli xüsusiyyətini və mürəkkəbliyini nəzərə alaraq, faktiki nəticələrlə işlədilmiş fərziyyələr arasında yaranan fərqlər və ya bu fərziyyələrdə gələcək dəyişikliklər artıq qeydə alınmış vergi gəlirində və xərclərdə gələcək düzəlişlərin aparılması zərurətini yarada bilər. Şirkət məntiqi hesablamalar əsasında vergi orqanlarının yoxlamalarının mümkün nəticələri üçün ehtiyatlar yaradır. Bu ehtiyatların məbləği keçmiş vergi yoxlamaları üzrə təcrübəyə və vergiyə cəlb olunan müəssisə və məsul vergi orqanı tərəfindən vergi qaydalarının fərqli şərh edilməsi kimi müxtəlif amillərə əsaslanır. Şərhlərin bu cür fərqlənməsi bir çox məsələlərlə bağlı, ölkədə qüvvədə olan şəraitlərdən asılı olaraq yarana bilər.

Təxirə salınmış vergi aktivləri bütün istifadə edilməmiş vergi zərərləri üçün zərərlərin istifadə edilə biləcəyi vergiyə cəlb olunan mənfəətin mövcud olduğu dərəcədə əks etdirilir. Təxirə salınmış vergi aktivlərinin əks etdiriləcək məbləğini müəyyən etmək məqsədilə rəhbərlikdən gələcək verginin planlaşdırılması strategiyaları ilə birlikdə gələcək vergi tutulmalı mənfəətin vaxtı və səviyyəsi əsasında, əhəmiyyətli proqnozlar vermək tələb olunur.

*Xarici valyutanın çevrilməsi*

21 saylı MUBS *"Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri"* və onun şərhlərinə uyğun olaraq, Şirkətin müvafiq hadisə və şəraitlərinin iqtisadi mahiyyətini əks etdirən funksional valyutası Azərbaycan manatıdır ("AZN"), belə ki, Şirkətin gəlirinin, xərclərinin, alınmış mal-materialların və öhdəliklərinin çox hissəsinin qiymətləndirilməsi, yaranması, ödənilməsi və ya digər yolla ölçülməsi Azərbaycan manatı ilə həyata keçirilir.

Xarici valyutalarla aparılan əməliyyatlar ilk öncə əməliyyat tarixində qüvvədə olan valyuta məzənnəsi ilə funksional valyutaya çevrilir. Xarici valyuta ilə olan monetar aktivlər və öhdəliklər maliyyə vəziyyəti haqqında hesabat tarixində qüvvədə olan spot dərəcəsi ilə funksional valyutaya çevrilir.

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

*Xarici valyutanın çevrilməsi (davamı)*

Bütün fərqlər ümumi gəlir haqqında hesabatda yazılır. Xarici valyuta ilə olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr ədalətli dəyərin təyin edildiyi tarixdə mövcud olan məzənnə ilə çevrilir.

AZN Azərbaycan Respublikasından kənarda tam sərbəst dönərli valyuta deyildir. Azərbaycan Respublikası daxilində rəsmi məzənnə Azərbaycan Respublikasının Mərkəzi Bankı ("ARMB") tərəfindən müəyyən edilir. Bazar dərəcələri rəsmi dərəcələrdən fərqlənə bilər, lakin, bu fərqlər adətən Mərkəzi Bankın nəzarəti altında olaraq, cüzi olur. 31 dekabr 2013-cü və 2012-ci il tarixlərində rəsmi məzənnə, müvafiq olaraq, 1.0780 AZN = 1 Avro və 1.0377 AZN = 1 Avro olmuşdur. Xarici valyuta ilə ifadə edilmiş əməliyyatlar əməliyyat tarixində rəsmi məzənnə ilə qeydə alınır. 18 fevral 2014-cü il tarixində məzənnə 1.0759 AZN = 1 Avro olmuşdur.

*Dövlət Sosial Müdafiə Fondu*

Azərbaycan Respublikasının düzəlişlər edilmiş "Sosial sığorta haqqında" qanununa uyğun olaraq Şirkət öz işçiləri adından Dövlət Sosial Müdafiə Fonduna ödəmələr aparmalıdır. Şirkətin köçürmələri 2013-cü və 2012-ci illərdə vergi qeydlərində əks etdirilmiş əmək haqlarının 22%-ni təşkil etmişdir.

*Əlavə dəyər vergisi*

Vergi orqanları satış və alışlar üzrə əlavə dəyər vergisinin ("ƏDV") xalis əsasla ödənilməsinə icazə verir.

ƏDV üzrə ödəniləcək məbləğlər maliyyə vəziyyəti haqqında hesabatın tarixində ödənilmiş alışlar üzrə ƏDV-ni çıxmaqla, sifarişçilərə satışlar tanınanda vergi orqanlarına ödəniləcək satışlara aid olan vergi məbləğindən ibarətdir. Bundan əlavə, maliyyə vəziyyəti haqqında hesabatın tarixində ödənilməmiş satışa aid olan ƏDV də (təxirə salınmış ƏDV) ƏDV üzrə ödəniləcək məbləğlərə daxil edilir. Debitor borclarının dəyərsizləşməsi ilə bağlı ehtiyat yaradıldıqda, dəyərsizləşmə üzrə zərər ƏDV daxil olmaqla debitorun ümumi məbləğində yazılır.

Əvəzi ödəniləcək ƏDV-nin maliyyə vəziyyəti haqqında hesabat tarixində ödənilməmiş alışlara aiddir. Əvəzi ödəniləcək ƏDV alışlar üçün ödəmə aparıldıqda satış üzrə ƏDV hesabına əvəzləşdirilə bilər.

*Gəlirin tanınması*

Gəlir Şirkət tərəfindən əldə edilməsi gözlənilən iqtisadi fayda miqdarında və etibarlı şəkildə ölçülə bildikdə ödənişinin nə zaman edilməsindən asılı olmayaraq əks etdirilir. Gəlir müqavilədə müəyyən olunmuş ödəniş şərtlərini nəzərə alaraq alınmış və ya alınacaq ödənişin ədalətli dəyəri ilə ölçülür. Şirkət prinsipal və ya agent kimi çıxış etdiyini başa düşmək üçün xüsusi meyarlardan istifadə etməklə gəlir əldə etmə sövdələşmələrini qiymətləndirir. Şirkət belə qərara gəlmişdir ki, onun bütün gəlir əldə etmə sövdələşmələrində prinsipal kimi çıxış edir. Malların satışından gəlir mallar üzrə mülkiyyət hüququ ilə bağlı əhəmiyyətli risklər və faydalar alıcıya keçəndə (adətən, mal zavoddan göndərildiyi zaman) tanınır.

*Faiz gəliri*

Amortizasiya olunmuş dəyərdə qiymətləndirilmiş bütün maliyyə alətləri effektiv faiz metodundan istifadə etməklə qeydə alınır. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Faiz gəliri ümumi gəlir haqqında hesabatda maliyyə gəlirinə daxil edilir.

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

*Maliyyə aktivləri*

<u>İlkin tanıma və ölçmə</u>
39 saylı MUBS çərçivəsində maliyyə aktivləri, müvafiq olaraq, mənfəət və ya zərər vasitəsi ilə ədalətli dəyərlə əks etdirilən maliyyə aktivləri, kreditlər və debitor borcları, ödəniş tarixinə qədər saxlanılan investisiyalar, satıla bilən maliyyə aktivləri və ya effektiv hedcinqlərdə hedcinq alətləri kimi təyin edilmiş törəmə alətlər kimi təsnif edilir. Şirkət maliyyə aktivlərinin təsnifatını ilk tanıma zamanı həyata keçirir. Bütün maliyyə aktivləri ilkin olaraq ədalətli dəyərlə tanınır.

Şirkət heç bir maliyyə aktivini ilkin tanıma zamanı mənfəət və ya zərər vasitəsi ilə ədalətli dəyərlə, ödəniş tarixinə qədər saxlanılan investisiyalar, satıla bilən maliyyə aktivləri və ya törəmə alət kimi təsnif etməmişdir.

<u>Sonrakı qiymətləndirmə</u>
Maliyyə aktivlərinin sonrakı qiymətləndirilməsi onların təsnifatından asılıdır:

*Kreditlər və debitor borcları*
Kreditlər və debitor borcları fəal bazarda dövr etməyən, müəyyən və ya müəyyən edilə bilən ödənişli qeyri-törəmə maliyyə aktivləridir. İlkin qiymətləndirmədən sonra belə maliyyə aktivləri dəyərsizləşməni çıxmaqla effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya hesablanmış dəyərlə qiymətləndirilir. Amortizasiya hesablanmış dəyər satınalma zamanı tətbiq edilən endirimi və ya əlavə qiyməti və effektiv faiz dərəcəsinin ayrılmaz hissəsi olan haqq və xərcləri nəzərə almaqla hesablanır. Effektiv faiz dərəcəsi metodu ilə amortizasiya ümumi gəlir haqqında hesabatda maliyyə gəlirinə daxil edilir. Dəyərsizləşmədən yaranan zərərlər ümumi gəlir haqqında hesabatda kreditlər üçün maliyyə xərcində və debitor borcları üçün satışın maya dəyərində və ya digər əməliyyat məsrəflərində tanınır.

<u>Tanınmanın dayandırılması</u>
Maliyyə aktivinin (və ya, müvafiq hallarda, maliyyə aktivinin bir hissəsinin və ya oxşar maliyyə aktivlər qrupunun bir hissəsinin) tanınması aşağıdakı hallarda dayandırılır:

- Aktivdən pul vəsaitini əldə etmək hüququnun vaxtı başa çatmışdır;
- Şirkət özünün aktivdən pul vəsaitlərini almaq hüquqlarını üçüncü tərəfə ötürmüş və ya üzərinə pul vəsaitlərini "tranzit" razılaşması əsasında tam məbləğdə və çox yubanmadan ödəmək öhdəliyini götürmüşdür; və Şirkət ya (a) aktiv üzrə risk və səmərələrin böyük hissəsi ötürmüş; yaxud (b) aktiv üzrə risk və səmərələrin böyük hissəsini ötürməmiş və onları özündə saxlamamış, lakin, aktiv üzrə nəzarəti ötürmüşdür.

Şirkət aktivdən pul vəsaitlərini almaq hüquqlarını ötürdükdə və ya "tranzit" razılaşmasına qoşulduqda, mülkiyyət hüququ ilə bağlı riskləri və faydaları saxlayıb-saxlamayacağını və nə dərəcədə saxlayacağını qiymətləndirməlidir. Şirkət aktiv üzrə risk və səmərələrin böyük hissəsini nə ötürməyəndə, nə də özündə saxlamayanda, nə də ki aktiv üzrə nəzarət ötürülməyəndə aktiv Şirkətin bu aktivdə iştirakı müqabilində əks etdirilir. Bu halda Şirkət əlaqəli öhdəliyi də tanıyır. Ötürülmüş aktiv və əlaqəli öhdəlik Şirkətin saxladığı hüquq və öhdəliklərin bazasında ölçülür.

Ötürülmüş aktiv üzrə zəmanət formasında aktivdə iştirakın davam etməsi aktivin ilkin balans dəyəri və Şirkətdən tələb oluna biləcək maksimal ödəniş məbləğinin az olanı ilə ölçülür.

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

*Maliyyə aktivləri (davamı)*

Maliyyə aktivlərinin dəyərsizləşməsi
Maliyyə aktivinin və ya maliyyə aktivləri qrupunun dəyərsizləşməsi ehtimalına dair obyektiv sübutların olub-olmamasını müəyyən etmək üçün Şirkət hər maliyyə vəziyyəti haqqında hesabat tarixində qiymətləndirmə aparır. Maliyyə aktivi və ya maliyyə aktivləri qrupu yalnız və yalnız aktiv ilk dəfə əks etdirildikdən sonra baş vermiş bir və ya bir neçə hadisə nəticəsində dəyərsizləşmənin obyektiv sübutu olanda (baş vermiş "zərər hadisəsi") və ya bu zərər hadisəsi maliyyə aktivi və ya maliyyə aktivləri qrupundan gözlənilən və etibarlı şəkildə qiymətləndirilə bilən pul vəsaitləri hərəkətlərinə təsir göstərəndə dəyərsizləşmiş hesab edilir. Dəyərsizləşmənin sübutlarına borcalanın və ya borcalanlar qrupunun ciddi maliyyə çətinlikləri ilə rastlaşması, faizlərin və ya əsas məbləğin ödənilməsi öhdəliklərini pozması, yüksək müflisləşmə və ya digər maliyyə yenidənqurması ehtimalı ilə qarşılaşmasına dair sübutlar, habelə müşahidə edilən bazar məlumatları əsasında qiymətləndirilən gələcək pul vəsaitləri hərəkətində ölçülə bilən azalmaya (misal üçün vaxtı keçmiş ödənişlərin səviyyələrində dəyişikliklərə və ya aktivlər üzrə zərərlərlə uzlaşan iqtisadi şəraitlərə) dair sübutlar daxildir.

*Amortizasiya hesablanmış dəyərlə uçota alınan maliyyə aktivləri*

Amortizasiya hesablanmış dəyərlə uçota alınan maliyyə aktivləri ilə bağlı Şirkət əvvəlcə fərdi olaraq mühüm maliyyə aktivləri üçün fərdi şəkildə və fərdi olaraq mühüm olmayan maliyyə aktivləri üçün məcmu şəkildə dəyərsizləşməyə dair obyektiv sübutların olub-olmamasını qiymətləndirir. Şirkət mühüm olub-olmamasından asılı olmayaraq fərdi şəkildə qiymətləndirilmiş maliyyə aktivi üçün dəyərsizləşməyə dair obyektiv sübutun olmaması qərarına gələrsə, həmin aktivi analoji kredit riski xüsusiyyətlərinə malik olan maliyyə aktivləri qrupuna daxil edir və onların dəyərsizləşmə baxımından qiymətləndirilməsini məcmu şəkildə aparır. Dəyərsizləşmə baxımından fərdi şəkildə qiymətləndirilmiş və dəyərsizləşmə zərərləri əks etdirilmiş və ya əks etdirilməyə davam edən aktivlər dəyərsizləşmə baxımından məcmu şəkildə qiymətləndirməyə daxil edilmir.

Dəyərsizləşmə zərərlərinin çəkilməsinə dair obyektiv sübut olarsa, zərərin məbləği aktivlərin balans dəyəri ilə qiymətləndirilmiş gələcək pul vəsaitləri hərəkətinin cari dəyəri (hələ çəkilməmiş gələcəkdə gözlənilən kredit zərərləri nəzərə alınmadan) arasında fərq kimi ölçülür. Qiymətləndirilmiş gələcək pul vəsaitləri hərəkətinin cari dəyəri maliyyə aktivlərinin ilkin effektiv faiz dərəcəsi ilə diskont edilir.

Aktivin balans dəyəri ehtiyat hesabının istifadəsi vasitəsilə azaldılır və zərər mənfəət və zərərdə tanınır. Sonrakı ildə dəyərsizləşmə tanındıqdan sonra baş vermiş hadisəyə görə qiymətləndirilmiş dəyərsizləşmə zərəri artarsa və ya azalarsa, əvvəl tanınmış dəyərsizləşmə zərəri ehtiyat hesabında düzəliş aparmaqla artırılır və ya azaldılır. Əgər silinmə sonradan bərpa edilərsə, bərpa olunan məbləğ ümumi gəlir haqqında hesabatda maliyyə məsrəflərinin kreditinə silinir.

*Maliyyə öhdəlikləri*

İlkin tanıma və ölçmə
39 saylı MUBS çərçivəsində maliyyə öhdəlikləri mənfəət və ya zərərdə ədalətli dəyərlə hesablanmış maliyyə öhdəlikləri, kreditlər və borclar kimi və ya, müvafiq hallarda, effektiv hedcinqdə hedcinq aləti təyin olunan törəmə alətlər kimi təsnif edilir. Şirkət maliyyə öhdəliklərinin təsnifatını ilkin tanınma zamanı müəyyən edir.

Bütün maliyyə öhdəlikləri ilkin olaraq ədalətli dəyərlə tanınır və kredit və borclar üçün birbaşa aid edilən əməliyyat məsrəfləri əlavə edilir.

Şirkətin maliyyə öhdəliklərinə ticarət və digər kreditor borcları, kreditlər, borc vəsaitləri və hesablanmış öhdəliklər daxildir.

Şirkət ilkin tanıma zamanı heç bir maliyyə öhdəliyini mənfəət və ya zərərdə ədalətli dəyərlə və ya effektiv hedcinqdə hedcinq aləti təyin olunan törəmə alət kimi təsnif etməmişdir.

Sonrakı qiymətləndirmə
Maliyyə öhdəliklərinin qiymətləndirilməsi onların aşağıdakı təsnifatından asılıdır.

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

*Maliyyə öhdəlikləri (davamı)*

*Kreditlər və borclar*
İlkin tanınmadan sonra faiz hesablanan kreditlər və borclar daha sonra effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya hesablanmış dəyərlə qiymətləndirilir. Gəlirlər və zərərlər ümumi gəlir haqqında hesabatda öhdəliklərin tanınması dayandırıldıqda, eləcə də effektiv faiz dərəcəsi metodunun amortizasiya prosesi vasitəsilə əks etdirilir.

Amortizasiya hesablanmış dəyər satınalma zamanı tətbiq edilən endirimi və ya əlavə qiyməti və faktiki faiz dərəcəsi metodunun ayrılmaz hissəsi olan haqq və xərcləri nəzərə almaqla hesablanır. Effektiv faiz dərəcəsi metodunun amortizasiyası ümumi gəlir haqqında hesabatda maliyyə xərclərinə daxil edilir.

<u>Tanınmanın dayandırılması</u>
Maliyyə öhdəliyinin tanınması bu halda dayandırılır ki, həmin öhdəlik ya dayandırılmış, ya ləğv olunmuş olsun, ya da müddəti bitmiş olsun. Əgər mövcud maliyyə öhdəliyi əsasən fərqli şərtlərlə eyni kreditor tərəfindən başqası ilə əvəz edilərsə və ya mövcud öhdəliyin şərtləri əsasən dəyişdirilərsə, bu cür dəyişiklik və ya əvəzedilmə ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir. Müvafiq balans dəyərlərindəki fərq ümumi gəlir haqqında hesabatda öz əksini tapır.

Maliyyə aktivləri və öhdəlikləri haqqında əlavə məlumat 18-ci Qeyddə göstərilir.

*Əmlak, qurğu və avadanlıqlar*

Əmlak, qurğu və avadanlıqlar yığılmış köhnəlməni və/və ya dəyərsizləşmə zərərlərini (olduğu halda) çıxmaqla ilkin dəyəri ilə uçota alınır. Bu xərclərə, həmin xərc çəkildiyi zaman əks etdirmə meyarı qarşılananda, qurğu və avadanlığın əvəz edilən hissəsinin dəyəri daxildir. Əmlak, qurğu və avadanlıqların əhəmiyyətli hissələrinin intervallarla əvəzləşdirilməsi tələb olunanda Şirkət bu hissələri xüsusi istifadə müddəti olan fərdi aktivlər kimi tanıyır və onları müvafiq olaraq amortizasiya edir. Eynilə, əsas texniki müayinə aparılanda onun dəyəri, əks etdirmə meyarı qarşılananda, əmlak, qurğu və avadanlıqların balans dəyərində əvəz etmə kimi əks etdirilir. Bütün digər təmir və texniki xidmət xərcləri çəkildikcə ümumi gəlir haqqında hesabatda əks etdirilir. İstifadəsindən sonra aktivin istismardan çıxarılması üçün gözlənilən məsrəflərin cari dəyəri ehtiyat üçün tanıma meyarı yerinə yetiriləndə müvafiq aktivin dəyərinə daxil edilir.

Köhnəlmə aktivlərin aşağıda göstərilən kimi proqnozlaşdırılan istifadə müddətləri üzrə bərabər hissələrə bölünməklə hesablanır:

| | |
|---|---|
| Bina və qurğular | 20-40 il |
| Maşın və avadanlıqlar | 10-30 il |
| Nəqliyyat vasitələri, mebel və alətlər | 3-10 il |

Əmlak, qurğu və avadanlıqların balans dəyəri dəyərsizləşmə baxımından balans dəyərinin əvəzinin ödənilməyəcəyinə işarə edən hadisələr baş verəndə və ya şəraitlər dəyişəndə yenidən qiymətləndirilir. Belə işarələr mövcud olarsa və qalıq dəyərləri qiymətləndirilən əvəzi ödənilə bilən məbləğdən artıq olarsa, aktivlər və ya PVYV əvəzi ödənilə bilən məbləğədək silinir. Əmlak, qurğu və avadanlıqların əvəzi ödənilə bilən məbləği ən yüksək satış xərclərini çıxmaqla ədalətli dəyərinə və ya istifadə dəyərinə bərabərdir. İstifadə dəyərini qiymətləndirərkən, hesablanmış gələcək nağd vəsaitlərin dövriyyələri pulların vaxt dəyərinin cari bazar qiymətlərini və bu aktiv üçün səciyyəvi olan riskləri əks etdirən vergidən əvvəlki diskont dərəcəsindən istifadə etməklə onların hazırkı dəyərinə çatdırılır.

Digər aktivlərdən çox asılılığı olmayan pul vəsaitləri hərəkətini yaratmayan aktivlər üçün kompensasiya məbləği həmin aktivin aid olduğu PVYV üçün müəyyən edilir.

Əmlak, qurğu və avadanlıqlar obyekti xaric ediləndə və ya onun istifadə və ya xaric edilməsindən heç bir gələcək iqtisadi fayda gözlənilməyəndə, uçotdan çıxarılır. Aktivin uçotdan çıxarılmasından yaranan hər hansı gəlir və ya zərər (uçotdan çıxarmadan xalis mədaxil ilə aktivin balans dəyəri arasındakı fərq kimi hesablanır) aktiv uçotdan çıxarıldığı ildə ümumi gəlir haqqında hesabata daxil edilir.

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

*Əmlak, qurğu və avadanlıqlar (davamı)*

Mineral ehtiyatlar maya dəyəri ilə qiymətləndirilmiş və qiymətləndirilən kommersiya müddəti üzrə istehsal vahidi metodu ilə köhnəlmə hesablanmış sahənin bərpa edilməsi üçün ehtiyatdan ibarətdir. Torpaq üzrə köhnəlmə hesablanmır.

Əmlak, qurğu və avadanlığın qalıq dəyərləri, istifadə müddətləri və köhnəlmə üsulları hər maliyyə ili təhlil edilir və, müvafiq olarsa, gələcək müddətlər üçün düzəlişlər aparılır.

*Tamamlanmamış tikinti*

Tamamlanmamış tikinti ("TT") başa çatdırılmamış layihələrin əsaslı tikintisi deməkdir. TT qalığına üçüncü tərəflər və Şirkət tərəfindən tikilən aktivlər və nəzərdə tutulan istifadəyə hazır olmayan tamamlanmış aktivlər daxildir. Aktivlər TT-dən müvafiq "əmlak, qurğu və avadanlıqlar" kateqoriyasına köçürülür və bu aktivlər istismara veriləndə onlar üzrə köhnəlmə hesablanmağa başlayır.

Tikinti işləri ilə bağlı edilmiş əvvəlcədən ödəmələr və alınmış iri ehtiyat hissələri TT-yə daxil edilir.

*Qeyri-maddi aktivlər*

Ayrılıqda əldə edilmiş qeyri-maddi aktivlər ilkin tanınma zamanı maya dəyəri ilə ölçülür. İlkin tanınmadan sonra qeyri-maddi aktivlər yığılmış amortizasiyanı və yığılmış dəyərsizləşmə zərərlərini çıxmaqla maya dəyəri ilə əks etdirilir.

Qeyri-maddi aktivlərin istifadə müddətləri məhdud və ya qeyri-müəyyən ola bilər. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlərə istifadə müddəti üzrə amortizasiya hesablanır və həmin qeyri-maddi aktivlər üzrə mümkün dəyərsizləşmə əlamətləri mövcud olanda dəyərsizləşmə baxımından qiymətləndirmə aparılır. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlər üzrə amortizasiya müddətinə və amortizasiya metoduna ən azından hər hesabat dövrünün sonunda yenidən baxılmalıdır. Aktivin gözlənilən istifadə müddətində və ya onunla əlaqədar gözlənilən gələcək iqtisadi faydaların istifadə edilməsi sxemlərində dəyişikliklər, müvafiq olaraq, amortizasiya dövrü və ya metodunu dəyişməklə uçota alınır və mühasibat uçotu qiymətləndirmələrində dəyişiklik hesab olunur. Məhdud müddəti olan qeyri-maddi aktivlər üzrə amortizasiya xərci ümumi gəlir haqqında hesabatda xərclər kateqoriyasında qeyri-maddi aktivlərin funksiyasına uyğun olaraq tanınır.

Qeyri-müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlərə amortizasiya hesablanmır, lakin, bunlar hər il fərdi şəkildə və ya pul vəsaitlərini yaradan aktiv səviyyəsində dəyərsizləşmə baxımından yoxlanılır. Qeyri-müəyyən istifadə müddətinin qiymətləndirilməsinə hər il yenidən baxılır və qeyri-müəyyən istifadə müddəti prinsipinin məqbul olub-olmaması müəyyən edilir. Məqbul olmayanda, qeyri-müəyyən istifadə müddəti gələcək dövrlərdə məhdud istifadə müddətinə dəyişdirilir.

Qeyri-müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlərin tanınmasının dayandırılmasından əmələ gələn gəlir və ya xərclər xalis xaric etmədən əldə edilən mədaxil və aktivin balans dəyəri arasında fərq kimi qiymətləndirilir və aktivin tanınması dayandırılanda ümumi gəlirdə tanınır.

*Mal-material ehtiyatları*

Mal-material ehtiyatları ilkin dəyərin (orta qiymət metodu ilə müəyyən edilir) və ya xalis satış dəyərinin daha aşağı məbləği ilə qiymətləndirilir.

Hər bir məhsulu hazırkı yerinə və vəziyyətinə çatdırmaq üçün çəkilmiş xərclər aşağıdakı kimi uçota alınır:

| | | |
|---|---|---|
| Xammal | – | Orta hesabla alış/hasilat xərci; |
| Yarımfabrikat və hazır məhsul | – | Borcalma xərclərini çıxmaqla birbaşa material və əməyin dəyəri və normal əməliyyat gücü əsasında istehsalat qaimə xərclərinin proporsiyası. |

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

*Mal-material ehtiyatları (davamı)*

Xalis satış dəyəri qiymətləndirilmiş tamamlama xərclərini və satışı aparmaq üçün lazım olan qiymətləndirilmiş xərcləri çıxmaqla fəaliyyətin adi gedişində qiymətləndirilmiş satış qiymətidir.

*Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi*

Şirkət hər bir hesabat tarixində aktivin dəyərsizləşə biləcəyini göstərən hər hansı bir əlamətin olub-olmadığını qiymətləndirir. Əgər hər hansı bir əlamət olarsa və ya aktiv üçün dəyərsizləşmə testinin aparılması tələb olunursa, Şirkət aktivin bərpa edilə bilən məbləğini hesablayır. Aktivin bərpa edilə bilən məbləği satış məsrəfləri çıxılmaqla aktivin və ya PVYV-in ədalətli dəyəri və onun istifadə dəyərindən daha yüksək olanıdır və hər hansı aktiv digər aktiv və ya aktivlər qrupu tərəfindən yaradılan pul vəsaitlərinin mədaxilindən əhəmiyyətli dərəcədə asılı olmayan pul vəsaitlərinin mədaxilini yaradırsa, həmin aktiv üçün fərdi olaraq müəyyən edilir. Aktivin və ya PVYV-in balans dəyərinin onun bərpa edilə bilən məbləğindən çox olduğu hallarda, aktiv dəyərsizləşmiş hesab edilir və onun dəyəri bərpa edilə bilən məbləğədək azaldılır.

İstifadə dəyərinin hesablanması zamanı hesablanmış pul vəsaitlərinin gələcək hərəkəti pulun vaxt dəyərinin cari bazar qiymətləndirilməsini və aktivlə bağlı riskləri əks etdirən vergi öncəsi diskont dərəcəsindən istifadə etməklə cari dəyərinə endirilir. Satış xərcləri çıxılmaqla ədalətli dəyərin hesablanması zamanı son bazar əməliyyatları (əgər vardırsa) nəzərə alınır. Belə əməliyyatlar müəyyən edilə bilməsə, müvafiq qiymətləndirmə modeli istifadə edilir. Bu hesablamalar qiymətləndirmə əmsalları, bazarda sərbəst dövriyyədə olan törəmələr üçün elan edilmiş səhm qiymətləri və ya digər cari ədalətli dəyər göstəriciləri ilə təsdiq olunur.

Dəyərsizləşmənin hesablanmasını Şirkət ətraflı büdcə və proqnoz hesablamaları ilə əsaslandırır. Bunlar Şirkətin fərdi aktivlərinin aid edildiyi hər bir PVYV-si üçün ayrıca hazırlanır. Bu büdcə və proqnoz hesablamaları adətən beş illik müddəti əhatə edir. Daha uzun müddətlər üçün uzunmüddətli artım dərəcəsi hesablanır və beş ildən sonra layihənin gələcək pul vəsaitləri hərəkətlərinə tətbiq edilir.

Əvvəl yenidən qiymətləndirilmiş əmlak üzrə yenidən qiymətləndirmənin digər ümumi gəlirlərdə əks etdirilməsi istisna olmaqla, davam edən əməliyyatlar üzrə dəyərsizləşmə zərərləri, mal-material ehtiyatları üzrə dəyərsizləşmə də daxil olmaqla ümumi gəlir haqqında hesabatda dəyərsizləşən aktivin funksiyasına uyğun xərc kateqoriyalarında əks etdirilir. Bu halda dəyərsizləşmə həmçinin əvvəlki yenidən qiymətləndirmənin məbləğinədək digər ümumi gəlir haqqında hesabatda əks etdirilir.

*Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri*

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri ödəmə müddəti üç aydan artıq olmayan bank və kassada olan pul vəsaitlərindən və ƏDV üzrə depozit hesabından ibarətdir.

*Əvvəlcədən ödəmələr*

Əvvəlcədən ödəmələr qarşı tərəfin öz öhdəliklərini yerinə yetirməməsi riski yarananda hər hansı məbləğdə ehtiyatı çıxmaqla ödənişin ilkin məbləği ilə tanınır və uçota alınır. Əvvəlcədən ödəmələr başa çatma müddətindən və alınmış mal və xidmətlərdən asılı olaraq cari və ya uzunmüddətli kimi təsnif edilir.

*Ehtiyatlar*

Şirkət ehtiyatları keçmiş hadisənin nəticəsi olan cari hüquqi və ya konstruktiv öhdəliyə sahib olduqda, öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi səmərələri təcəssüm etdirən resursların xaric olmasının tələb olunacağını ehtimal etdikdə və öhdəliyin məbləğini etibarlı qiymətləndirə biləndə tanıyır.

Pulların vaxt dəyərinin təsiri mühüm olduqda, gözlənilən gələcək pul vəsaitləri hərəkətlərini pulların vaxt dəyərinin cari bazar qiymətləndirmələrini və, münasib hallarda, öhdəliyə məxsus olan riskləri əks etdirən vergidən əvvəlki dərəcə ilə diskont etməklə ehtiyatlar müəyyən edilir. Diskont istifadə edildikdə, vaxt keçdikcə baş verən ehtiyatın artımı maliyyə xərci kimi əks etdirilir.

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

*Ehtiyatlar (davamı)*

Sahənin bərpa edilməsi üçün ehtiyat
Sahənin bərpa edilməsi üçün ehtiyat hasilatdan sonra karxananın səthini və yeraltını bərpa etmək üçün hüquqi və ya konstruktiv öhdəlik mövcud olanda yaradılır. Öhdəliyi yerinə yetirmək üçün gözlənilən məsrəflərin cari dəyərini əks etdirən sahənin bərpa edilməsi üçün ilkin ehtiyata bərabər məbləğdə olan müvafiq əsas vəsait karxanada səthi işlərin başa çatdırılmasından dərhal sonra kapitallaşdırılır. Diskontun qaytarılması xərci çəkildikcə xərclərə silinir və ümumi gəlir haqqında hesabatda maliyyə xərci kimi uçota alınır. Gözlənilən gələcək bərpa xərclərinə hər il yenidən baxılır və lazım olanda düzəlişlər aparılır. Gözlənilən gələcək xərclərdə və ya tətbiq edilən diskont dərəcəsində dəyişikliklər aktivin dəyərinə əlavə edilir və ya bu dəyərdən çıxılır.

Ləğv etmə üçün ehtiyat
Keçmiş əməliyyatlardan yaranan mövcud şəraitlə bağlı və cari və gələcək gəlirə səbəb olmayan məsrəflər xərclərə silinir. Ləğv etmə xərcləri üzrə öhdəliklər sahənin təmizlənməsi işləri mümkün olanda və əlaqəli məsrəflər etibarlı şəkildə qiymətləndirilə biləndə tanınır. Ümumiyyətlə, bu ehtiyatların tanınması vaxtı rəsmi fəaliyyət planı ilə və ya, daha erkən olarsa, vəsaitlərin çıxarılması və ya qeyri-işlək sahələrin bağlanması vaxtı ilə üst-üstə düşür.

Tanınmış məbləğ tələb olunan məsrəfin ən yaxşı qiymətləndirilməsidir. Öhdəlik illərlə yerinə yetirilmədikdə, qiymətləndirilmiş gələcək məsrəflərin cari dəyəri tanınır.

*Borclar üzrə məsrəflər*

Nəzərdə tutulan istifadəsi və ya satılması üçün çox vaxt sərf olunan aktivin alınması, tikintisi və ya istehsalına birbaşa aid olan borclar üzrə məsrəflər müvafiq aktivlərin dəyərinin bir hissəsi kimi kapitallaşdırılır. Bütün digər borclar üzrə məsrəflər yarandığı dövrdə xərclərə silinir. Borclar üzrə məsrəflər vəsaitlərin borc götürülməsi ilə bağlı müəssisənin çəkdiyi faiz və digər xərclərdən ibarətdir.

*Mənfəət vergisi*

Cari mənfəət vergisi
Cari və əvvəlki dövrlər üzrə cari mənfəət vergisi aktivləri və öhdəlikləri vergi orqanları tərəfindən əvəzi ödənilməsi və ya vergi orqanlarına ödənilməsi gözlənilən məbləğ kimi ölçülür. Məbləği hesablamaq üçün maliyyə vəziyyəti haqqında hesabatın tarixinə qüvvədə olan və ya faktiki olaraq qüvvədə olan vergi dərəcələri və vergi qanunları istifadə edilir.

Birbaşa kapitalda tanınmış maddələrlə bağlı cari mənfəət vergisi ümumi gəlir haqqında hesabatda deyil, kapitalda tanınır. Tətbiq olunan vergi qaydalarına görə müxtəlif şərhi mümkün olan hadisələrlə əlaqədar Rəhbərlik tətbiq edilən vergi qaydalarının müxtəlif şərhlərinə yol verən hallarla bağlı vergi bəyannamələrində qəbul edilmiş mövqeləri müntəzəm olaraq qiymətləndirir və müvafiq hallarda ehtiyat ayırır.

Təxirə salınmış vergi
Təxirə salınmış vergi, balans hesabatı metodundan istifadə etməklə, hesabat tarixində aktivlərin və öhdəliklərin vergi bazası və onların maliyyə hesabatları məqsədləri üçün göstərilmiş qalıq dəyərləri arasında müvafiq maliyyə vəziyyəti haqqında hesabatın tarixinə mövcud olan bütün müvəqqəti fərqlər üzrə müəyyən edilir.

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

*Mənfəət vergisi (davamı)*

Təxirə salınmış vergi (davamı)

Təxirə salınmış vergi öhdəlikləri aşağıdakılar istisna olmaqla vergiyə cəlb olunan bütün müvəqqəti fərqlər üçün tanınır:

- Təxirə salınmış vergi öhdəliyi qudvilin amortizasiyasından və ya şirkətlərin birləşməsi olmayan əməliyyat zamanı aktiv və ya öhdəliyin ilkin tanınmasından irəli gəldiyi, eləcə də əməliyyat zamanı uçot mənfəətinə və ya vergiyə cəlb olunan mənfəət və ya zərərə təsir göstərmədiyi hallar;
- Müvəqqəti fərqlərin qaytarılması vaxtının nəzarət altında saxlanıla bilən və müvəqqəti fərqin yaxın gələcəkdə qaytarılması ehtimalı olmayan hallar istisna olmaqla, törəmə müəssisələrə, əlaqəli şirkətlərə investisiyalarla və birgə müəssisələrdə iştirak payları ilə əlaqədar vergiyə cəlb olunan müvəqqəti fərqlər.

Təxirə salınmış vergi aktivləri aşağıdakılar istisna olmaqla bütün çıxılmalı müvəqqəti fərqlərin, sonrakı dövrə keçirilmiş istifadə edilməmiş vergi aktivləri və istifadə edilməmiş vergi öhdəliklərinin istifadəsi ilə əlaqədar vergi tutulmalı mənfəətin mövcudluğunun mümkünlüyü baxımından, çıxılmalı müvəqqəti fərqlər, sonrakı dövrə keçirilmiş istifadə edilməmiş vergi kreditləri və istifadə edilməmiş vergi öhdəlikləri üçün tanınır:

- Çıxılan müvəqqəti fərqə aid olan təxirə salınmış vergi aktivi şirkətlərin birləşməsi olmayan əməliyyat zamanı aktiv və ya öhdəliyin ilkin tanınmasından irəli gəldiyi, eləcə də əməliyyat zamanı uçot mənfəətinə və ya vergiyə cəlb olunan mənfəət və ya zərərə təsir göstərmədiyi hallar; və
- Törəmə müəssisələrə, əlaqəli şirkətlərə investisiyalarla və birgə müəssisələrdə iştirak payları ilə bağlı vergiyə cəlb olunan müvəqqəti fərqlərlə əlaqədar, təxirə salınmış vergi aktivi yaxın gələcəkdə müvəqqəti fərqlərin bərpa olunması ehtimalı olan və müvəqqəti fərqin istifadə edilə biləcəyi vergiyə cəlb olunan mənfəətin mövcud olduğu dərəcədə müəyyən edilir.

Təxirə salınmış vergi aktivlərinin dəyəri hər maliyyə vəziyyəti haqqında hesabat tarixində nəzərdən keçirilir və təxirə salınmış vergi aktivlərinin hamısının və ya bir hissəsinin istifadə edilməsi üçün kifayət qədər vergiyə cəlb olunan mənfəətin mövcudluğu ehtimalı olmadığı halda azaldılır. Tanınmamış təxirə salınmış vergi aktivləri hər hesabat tarixində yenidən qiymətləndirilir və gələcək vergiyə cəlb olunacaq gəlirlər təxirə salınmış vergi aktivinin bərpa olunmasına imkan verdiyi dərəcədə tanınır.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri, hər maliyyə vəziyyəti haqqında hesabat tarixinə qüvvədə olan və ya əsas etibarı ilə qüvvədə olan vergi dərəcələri (və vergi qanunları) əsasında aktivlərin satıldığı və ya öhdəliklərin yerinə yetirildiyi müddətdə tətbiq edilən vergi dərəcələri ilə ölçülür.

Mənfəət və zərərdən kənarda tanınmış maddələrlə bağlı təxirə salınmış vergi mənfəət və zərərdən kənarda tanınır. Təxirə salınmış maddələr müvafiq əməliyyatlara uyğunlaşdırmaqla ya digər ümumi gəlirdə, ya da birbaşa kapitalda tanınır.

Təxirə salınmış vergi aktivləri və təxirə salınmış vergi öhdəlikləri bu halda əvəzləşdirilir ki, cari vergi aktivlərini cari mənfəət vergisi öhdəlikləri ilə qarşılıqlı əvəzləşdirmək üçün qanuni qüvvəyə minmiş hüquq mövcud olsun və təxirə salınmış vergilər vergiyə cəlb olunan eyni müəssisəyə və eyni vergi orqanına aid olsun.

*Əlaqəli tərəflərlə əməliyyatlar*

MHBS-a uyğun maliyyə hesabatlarının məqsədləri üçün tərəflər o halda əlaqəli hesab edilir ki, bir tərəf digər tərəfə nəzarət etmək və ya maliyyə və ya əməliyyat qərarlarının qəbul edilməsində mühüm təsir göstərmək iqtidarında olsun. Hər bir potensial əlaqəli tərəf münasibətlərini nəzərdən keçirdikdə, diqqət bu münasibətlərin yalnız hüquqi formasına deyil, mahiyyətinə də yönəldilir.

Əlaqəli tərəflər əlaqəli olmayan tərəflərin həyata keçirə bilmədiyi əməliyyatlarda iştirak edə bilər. Əlaqəli tərəflər arasında əməliyyatlar əlaqəli olmayan tərəflər arasındakı əməliyyatlarla eyni şərt, müddət və məbləğ əsasında aparılmaya bilər.

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

*Əlaqəli tərəflərlə əməliyyatlar (davamı)*

Əlaqəli tərəflərlə əməliyyatlar öz xüsusiyyətinə görə kommersiya əsası ilə aparılan əməliyyatlar hesab edilə bilməz.

*Dividendlər*

Ödəniləcək dividendlər bəyan edildiyi dövrdə bölüşdürülməmiş mənfəətin istifadəsi kimi tanınır.

*Ticarət kreditor borcları, hesablanmış öhdəliklər və müştərilərdən alınmış avanslar*

Ticarət kreditor borcları və hesablanmış öhdəliklər, Şirkətə hesab-faktura təqdim edilib-edilmədiyindən asılı olmayaraq, alınmış mal və xidmətlər üçün gələcəkdə ödəniləcək vəsaitin ədalətli dəyəri olan maya dəyəri ilə uçota alınır. Müştərilərdən alınmış avanslar sementin çatdırılması üçün əvvəlcədən ödəmələrdən ibarətdir.

*Yenidən təsnif etmələr və yenidən baxılmalar*

Maliyyə hesabatlarının cari ildə təqdimatına uyğunlaşdırmaq məqsədilə keçən ilin pul vəsaitlərinin hərəkəti haqqında hesabatdakı məbləğlərdə yenidən təsnif etmə aparılmışdır. Yenidən təsnif etmə yalnız müqayisəli təqdimat üçün aparılmış və hər hansı əvvəlki dövrdə Şirkətin maliyyə vəziyyəti, əməliyyatların nəticələri və səhmdarın payına əhəmiyyətli təsir göstərməmişdir.

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

| | Təsnifatdan əvvəl | Təsnifat | Təsnifatdan sonra |
|---|---|---|---|
| İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti: | | | |
| Əmlak, qurğu və avadanlıqların alınması | (38,903,979) | (388,849) | (39,292,828) |
| Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklər: | | | |
| Əvvəlcədən ödəmələr və avanslar | - | 388,849 | 388,849 |

## 3. Əmlak, qurğu və avadanlıqlar, xalis

Əmlak, qurğu və avadanlıqlar 31 dekabrda aşağıdakılardan ibarət idi:

| | 2013 | 2012 |
|---|---|---|
| Maya dəyəri: | | |
| Bina və qurğular | **217,640,864** | 201,175,332 |
| Maşın və avadanlıqlar | **184,855,570** | 165,541,643 |
| Nəqliyyat vasitələri, mebel və alətlər | **32,700,355** | 30,970,897 |
| Torpaq və mineral ehtiyatlar | **2,511,221** | 2,412,990 |
| TT | **30,067,492** | 55,493,434 |
| | **467,775,502** | 455,594,296 |
| Yığılmış köhnəlmə: | | |
| Bina və qurğular | **49,752,609** | 44,032,243 |
| Maşın və avadanlıqlar | **38,678,695** | 30,453,137 |
| Nəqliyyat vasitələri, mebel və alətlər | **18,749,038** | 16,456,369 |
| Torpaq və mineral ehtiyatlar | **677,856** | 313,493 |
| | **107,858,198** | 91,255,242 |
| **Xalis balans dəyəri** | **359,917,304** | 364,339,054 |

### 3. Əmlak, qurğu və avadanlıqlar, xalis (davamı)

31 dekabr 2013-cü il tarixində başa çatan il üzrə əmlak, qurğu və avadanlıqlarda hərəkətin təhlili aşağıdakı kimi olmuşdur:

| | Bina və qurğular | Maşın və avadanlıqlar | Nəqliyyat vasitələri, mebel və alətlər | Torpaq və mineral ehtiyatlar | TT | Cəmi |
|---|---|---|---|---|---|---|
| **31 dekabr 2012-ci il tarixinə xalis balans dəyəri** | 157,143,089 | 135,088,506 | 14,514,528 | 2,099,497 | 55,493,434 | 364,339,054 |
| Əlavələr | - | - | - | 98,231 | 12,365,882 | 12,464,113 |
| Silinmələr | - | - | (22,183) | - | - | (22,183) |
| TT-dən keçmiş aktivlər | 16,465,532 | 19,313,927 | 2,012,365 | - | (37,791,824) | - |
| İl üzrə köhnəlmə xərci | (5,720,366) | (8,225,558) | (2,553,393) | (364,363) | - | (16,863,680) |
| **31 dekabr 2013-cü il tarixinə xalis balans dəyəri** | **167,888,255** | **146,176,875** | **13,951,317** | **1,833,365** | **30,067,492** | **359,917,304** |

2008-ci ilin yanvar ayında Holcimin İdarə Heyəti mövcud klinker istehsalat gücünü artırmaq məqsədilə yeni istehsalat xəttinin ("6 saylı Soba") tikintisi layihəsini təsdiq etmişdir. 31 dekabr 2013-cü il tarixinə 6 saylı Soba üzrə kapitallaşdırılmış cəmi xərclər 324,660,018 AZN (2012-ci il: 317,756,703 AZN) olmuşdur ki, bu məbləğin 2,220,254 AZN-i (2012-ci il: 2,016,864 AZN) avans ödənişləri təşkil etmişdir. 31 dekabr 2013-cü il tarixinə avans ödənişləri üzrə qalığın əsas hissəsi yeni sobanın tikintisi üçün CBMI Construction Co. Ltd. ("CBMI") şirkətinə ödənilmiş 964,220 AZN (2012-ci il: 1,253,758 AZN) avansdan ibarətdir. CBMI ilə müqavilənin ümumi dəyəri 166.4 milyon Avrodur.

27 sentyabr 2012-ci il tarixində CBMI və Şirkət arasında yekun hesabat imzalanmışdır. Bu hesabata əsasən "Əhəngdaşını doğrayan maşından klinkerin nəqliyyat seksiyasına qədər" adlı birinci hissə şərti olaraq təhvil verilmişdir. Birinci hissə üzrə kapitallaşdırılmış məsrəf 264,421,484 AZN məbləğində olmuşdur. "Yanacağın ənənəvi hazırlanması və Yükün doldurulması və boşaldılması departamenti və Qablaşdırma və daşınma departamenti (Sement Silo)" adlı ikinci hissənin şərti təhvil verilməsi 2014-cü ilin ikinci yarısında gözlənilir. Yekun hesabata əsasən CBMI-yə 16,277,012 Avro (17,546,619 AZN) ödənilməlidir ki, bundan 31 dekabr 2013-cü il tarixində başa çatan il ərzində 2,929,862 Avro (3,158,391 AZN) (2012-ci il: 8,138,506 Avro (8,445,328 AZN) ödənilmişdir. Qalan məbləğin ödənilməsi 2014-cü ilin birinci yarısında gözlənilir.

31 dekabr 2013-cü il tarixində yeni soba layihəsinin dəyərinə kapitallaşdırılmış maliyyə xərcləri 820,899 AZN (2012-ci il: 3,866,440 AZN) məbləğində olmuşdur. Yeni sobanın tikintisi üçün alınmış kreditlər üzrə 2012-ci ilin mart ayına qədər hesablanmış maliyyə xərcləri tam şəkildə kapitallaşdırılmışdır. 2012-ci ilin aprel ayından başlayaraq hesablanmış faiz yeni sobaya aid tamamlanmamış tikintinin qalığının yeni soba layihəsinin ümumi dəyərinə proporsional olaraq kapitallaşdırılmışdır, hesablanmış faizin qalan məbləği isə ümumi gəlir haqqında hesabatda maliyyə xərci kimi tanınmışdır (Qeyd 23-ə bax).

Kommersiya istismarına verilmiş yeni soba xəttinə aid aktivlərin köhnəlməsi 2012-ci ilin mart ayından başlamışdır.

Azərbaycan Respublikasının qanunvericiliyi Şirkətdən yeni sobanın istismarına başlamamışdan əvvəl müxtəlif dövlət orqanlarından müəyyən icazələrin alınmasını tələb edir. 31 dekabr 2013-cü il tarixinə Şirkət yeni sobanın istismarı üçün tələb olunan bütün icazələri almışdır. Yeni soba Azərbaycan Respublikasının Dövlət Komissiyası tərəfindən qəbul edilməlidir və rəhbərlik bütün sənədlərin lazımi qaydada 2014-cü ildə əldə ediləcəyinə inanır.

CBMI ilə müqaviləyə uyğun olaraq və tərəfləri müqavilə öhdəliklərinin yerinə yetirilməməsindən qorumaq məqsədilə 20 dekabr 2012-ci il tarixində CBMI Şirkətə Kommerzbank AG Frankfurt Am Main-dan ümumi məbləği 8,317,553 Avro (8,966,322 AZN) olan geri çağrılmayan zəmanət məbləğini təqdim etmişdir. Zəmanət yekun təhvil-təslim aktı hazırlandığı tarixdən sonra bir ay ərzində və ya 2014-cü ilin oktyabr ayına qədər (hansı daha tez olarsa) qüvvədə qalır.

## 4. Qeyri-maddi aktivlər

23 iyun 2011-ci ildə Şirkət yeganə aktivi vulkanik qum istehsal etmək üçün lisenziya olan "Inter-Vulkan" MMC qeyri-əməliyyat şirkətini almışdır. Bu alışın dəyəri 1,500,000 AZN olmuşdur. "Inter-Vulkan" MMC-nin Abşeron rayonunun yerli İcra Hakimiyyəti ilə 99 illik lizinq razılaşması və 7 sentyabr 2011-ci ildə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin verdiyi dağ-mədən ayırması aktı vardır. Dağ-mədən ayırması aktı (lisenziya) 5 illik müddətə verilmiş və Şirkət lisenziyanın şərtlərini yerinə yetirdiyi təqdirdə uzadıla bilər.

16 dekabr 2011-ci ildə Şirkət yeganə aktivi Abşeron rayonunun yerli İcra Hakimiyyəti tərəfindən verilmiş 49 illik əhəngdaşını istehsal etmək hüququ olan "Şahqaya Vest" Ortaqlığı qeyri-əməliyyat şirkətini almışdır. Bu alışın dəyəri 3,000,000 AZN olmuşdur. 30 yanvar 2012-ci ildə bu istehsal hüququ Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin verdiyi dağ-mədən ayırması aktı ilə təsdiq edilmişdir. Dağ-mədən ayırması aktı (lisenziya) 5 illik müddətə verilmiş və Şirkət lisenziyanın şərtlərini yerinə yetirdiyi təqdirdə uzadıla bilər.

2013-cü və 2012-ci il ərzində bu lisenziyalar əsasında heç bir əməliyyat aparılmamışdır.

## 5. Mənfəət vergisi

31 dekabrda başa çatan ildə mənfəət vergisi xərcinin əsas komponentləri aşağıdakı kimi olmuşdur:

| | **2013** | 2012 |
|---|---|---|
| Cari mənfəət vergisi | **10,494,088** | 6,231,273 |
| Təxirə salınmış vergi: | | |
| Müvəqqəti fərqlərin yaranması və silinməsi ilə bağlı | **3,045,494** | 6,765,248 |
| **Ümumi gəlir haqqında hesabatda göstərilmiş mənfəət vergisi xərci** | **13,539,582** | 12,996,521 |

2013-cü və 2012-ci illər ərzində Azərbaycan Respublikası Şirkətin mənfəətindən vergi tutulan yeganə hüquqi səlahiyyət dairəsi olmuşdur.

Aşağıdakı cədvəldə mənfəət vergisi xərci, 31 dekabr 2013-cü və 2012-ci il tarixlərinə təqdim edilmiş maliyyə hesabatlarında göstərilmiş mənfəət vergisindən əvvəlki mənfəətə yerli qanunvericiliklə nəzərdə tutulmuş vergi dərəcəsinin tətbiq edilməsindən yarana bilən məbləğlə üzləşdirilir:

| | **2013** | 2012 |
|---|---|---|
| Mənfəət vergisindən əvvəl mənfəət | **65,127,650** | 51,104,862 |
| Yerli qanunvericiliyə uyğun olan mənfəət vergisi dərəcəsi | **20%** | 20% |
| Yerli qanunvericiliyə uyğun olan mənfəət vergisi dərəcəsi ilə gözlənilən mənfəət vergisi xərci | **13,025,530** | 10,220,972 |
| Gəlirdən çıxılmayan xərclər | **614,070** | 3,018,278 |
| Vergiyə cəlb olunmayan digər gəlir və çıxılmayan xərclər | **(100,018)** | (242,729) |
| **Təqdim edilmiş maliyyə hesabatlarında göstərilmiş mənfəət vergisi xərci** | **13,539,582** | 12,996,521 |

## 5. Mənfəət vergisi (davamı)

Aşağıdakı təxirə salınmış vergi aktivləri/öhdəlikləri 2013-cü və 2012-ci illərdə yerli qanunvericiliyə uyğun olaraq qüvvəyə minmiş 20% vergi dərəcəsini tətbiq etməklə hesablanmışdır. Maliyyə vəziyyəti haqqında hesabat tarixinə qüvvədə olan dərəcə aktivlərin və öhdəliklərin vergi bazaları və 31 dekabrda təqdim edilmiş maliyyə hesabatlarında göstərilmiş məbləğlər arasında müvəqqəti fərqlərin yaranması ilə nəticələnmişdir:

| | **2013** | 2012 |
|---|---|---|
| Təxirə salınmış mənfəət vergisi öhdəlikləri: | | |
| Əmlak, qurğu və avadanlıqlar | **(18,304,852)** | (14,459,803) |
| Ticarət kreditor borcları | **(28,000)** | (49,784) |
| Uzunmüddətli maliyyə öhdəliyi | **-** | (124,135) |
| Qısamüddətli maliyyə öhdəliyi | **-** | (61,341) |
| | **(18,332,852)** | (14,695,063) |
| Təxirə salınmış mənfəət vergisi aktivləri: | **350,291** | 406,081 |
| Mal-material ehtiyatları | **392,868** | 299,328 |
| Debitor borcları | **2,043,187** | 1,718,111 |
| Digər cari öhdəliklər | **1,167,400** | 937,931 |
| Ehtiyatlar | **3,953,746** | 3,361,451 |
| **Xalis təxirə salınmış vergi öhdəliyi** | **(14,379,106)** | (11,333,612) |

## 6. Əvvəlcədən ödəmələr

*Cari əvvəlcədən ödəmələr*

31 dekabr 2013-cü və 2012-ci il tarixlərinə cari əvvəlcədən ödəmələr ilk növbədə təchizatçılara xammal, ehtiyat hissələri və materiallar, avadanlıq və xidmətlər üçün əvvəlcədən ödəmələrdən ibarətdir.

*Uzunmüddətli əvvəlcədən ödəmələr*

31 dekabr 2013-cü il və 2012-ci il tarixlərinə uzunmüddətli əvvəlcədən ödəmələr əhəngdaşına yiyələnmək və ondan istifadə etmək üçün daimi hüquqların alınması üçün bir təchizatçıya edilmiş əvvəlcədən ödəmələrlə təmsil olunur. Əvvəlcədən ödəmənin istifadəsi əhəngdaşının Şirkətə çatdırılacağı növbəti otuz il ərzində gözlənilir.

## 7. Mal-material ehtiyatları, xalis

*Cari mal-material ehtiyatları*

Cari mal-material ehtiyatları, xalis, 31 dekabrda aşağıdakılardan ibarətdir:

| | **2013** | 2012 |
|---|---|---|
| Xammal | **1,263,213** | 1,512,169 |
| Qablaşdırma materialları | **677,852** | 337,134 |
| Ehtiyat hissələri və materiallar, xalis | **4,202,712** | 2,703,396 |
| Yarımfabrikat və hazır məhsullar | **4,652,652** | 4,532,642 |
| | **10,796,429** | 9,085,341 |

31 dekabr 2013-cü il tarixinə ehtiyat hissələri və materialların balans dəyəri 1,659,747 AZN (2012-ci il: 1,585,617 AZN) məbləğində ləng hərəkət edən və köhnəlmiş mal-material ehtiyatları üçün ehtiyat qədər azaldılmışdır. 2012-ci ildə 2,354,641 AZN məbləğində tam şəkildə ehtiyat yaradılmış köhnə sobalara aid mal-material ehtiyatları silinmişdir, 2013-cü ildə köhnə sobalara aid mal-material ehtiyatlarının silinməsi olmamışdır.

## 7. Mal-material ehtiyatları, xalis (davamı)

*Uzunmüddətli mal-material ehtiyatları*

31 dekabr 2013-cü il tarixinə 4,891,391 AZN (2012-ci il: 4,925,575 AZN) məbləğində uzunmüddətli mal-material ehtiyatları uzunmüddətli istifadə üçün bir təchizatçıdan alınmış əhəngdaşından ibarətdir.

## 8. Ticarət və digər debitor borcları, xalis

| | **2013** | 2012 |
|---|---|---|
| Ticarət debitor borcları | **7,966,044** | 2,343,904 |
| Digər debitor borcları | **65,152** | 185,368 |
| Ümidsiz hesablar üçün ehtiyatlar | **(1,964,341)** | (1,496,642) |
| | **6,066,855** | 1,032,630 |

Ticarət debitor borclarına faiz hesablanmır və müddətləri adətən 15-30 gün olur.

## 9. Vergilər üzrə debitor borcları

| | **2013** | 2012 |
|---|---|---|
| ƏDV üzrə debitor borcu | **813,696** | 830,011 |
| Vergilər üzrə cari debitor borcu | **-** | 243,393 |
| Digər vergilər | **6,681** | 25,036 |
| | **820,377** | 1,098,440 |

ƏDV və vergilər üzrə cari debitor borcu vergi orqanlarından gələcək vergi öhdəlikləri ilə əvəzləşdirmə və ya birbaşa pul ödənişi formasında qaytarılır. Rəhbərlik müntəzəm olaraq vergilər üzrə debitor borcları qalıqlarının bərpa oluna bilməsini nəzərdən keçirir və hesab edir ki, onları bir il ərzində tam bərpa olunacaqdır.

## 10. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri 31 dekabrda aşağıdakılardan ibarətdir:

| | **2013** | 2012 |
|---|---|---|
| Bankda pul vəsaitləri, AZN | **3,664,945** | 23,749,138 |
| Bankda pul vəsaitləri, ABŞ dolları | **30,988** | 143,975 |
| Bankda pul vəsaitləri, Avro | **106,685** | 274,021 |
| Bankda pul vəsaitləri, İsveçrə frankı | **3,600** | 20,532 |
| Bankda pul vəsaitləri, Rusiya rublu | **165** | 4,553 |
| Bankda pul vəsaitləri, Böyük Britaniya funtu | **2,143** | 5,598 |
| Kassada olan pul vəsaitləri | **742,104** | 1,400,827 |
| **ƏDV üzrə depozit hesabı, AZN** | **4,550,630** | 25,598,644 |

1 yanvar 2008-ci il tarixindən etibarən dövlət vergi orqanları ƏDV üzrə depozit hesablarını tətbiq etmiş və ƏDV-nin bu hesablar üzrə ödənilməsinə sərəncam vermişdir. Yeni vergi qaydasına riayət etmək məqsədilə Şirkət ƏDV üzrə depozit hesabını açmışdır. Bu qaydaya uyğun olaraq, ƏDV üzrə depozit hesabında olan pul vəsaiti yalnız vergi orqanlarına 45 gün əvvəl bildiriş verməklə çıxarıla bilər.

## 11. Kapital

*Nizamnamə kapitalı*

31 dekabr 2013-cü və 2012-ci il tarixlərinə Şirkətin buraxılmasına icazə verilmiş və dövriyyədə olan səhmlərinin sayı 1,590,644 olmuşdur. Hər bir səhmin nominal dəyəri 20 AZN təşkil edir. Buraxılmış bütün səhmlər tam ödənilmişdir. 31 dekabr 2013-cü və 2012-ci il tarixlərinə səhm kapitalı aşağıdakılardan ibarət olmuşdur:

| | Buraxılmış və mövcud olan səhmlərin sayı | Mülkiyyət payı % |
|---|---|---|
| Holcim | 1,049,874 | 66.00 |
| AYİB | 159,064 | 10.00 |
| AİŞ | 159,064 | 10.00 |
| HAB | 57,474 | 3.62 |
| Digər səhmdarlar | 165,168 | 10.38 |
| | **1,590,644** | **100.00** |

*Əlavə ödənilmiş kapital*

31 dekabr 2013-cü və 2012-ci il tarixlərinə əlavə ödənilmiş kapitala daxil edilmiş 3,301,937 AZN 1 oktyabr 1999-cu il tarixli Kredit razılaşmasına uyğun olaraq HAB-dan alınmış və sonra 2007-ci ildə HAB-dan alınmış məktuba uyğun olaraq Şirkətə bağışlanmış kreditin ödənilməmiş qalığı (kapitallaşdırılmış faizlə birlikdə) ilə təmsil olunur.

## 12. Faiz hesablanan kreditlər

*Cari faizli kreditlər və borclar:*

| | Ödəmə tarixi | İlkin valyuta | 31 dekabrda qalıq 2013 | 31 dekabrda qalıq 2012 |
|---|---|---|---|---|
| 20 milyon Avro məbləğində HAB krediti (Baş kredit) | 5 oktyabr 2015 | AVRO | - | 7,590,034 |
| 20 milyon Avro məbləğində HAB krediti (Subordinasiyalı kredit) | Yekun ödəmə tarixi (aşağıya baxın) | AVRO | **5,390,000** | - |
| 30 milyon Avro məbləğində HAB krediti (Subordinasiyalı kredit) | Yekun ödəmə tarixi (aşağıya baxın) | AVRO | **8,085,000** | - |
| HAB kreditləri üzrə hesablanmış faizin cari hissəsi (Subordinasiyalı kredit) | Yekun ödəmə tarixi (aşağıya baxın) | AVRO | **3,235,446** | - |
| HAB kreditləri üzrə hesablanmış faiz | | AVRO | **910,792** | 139,469 |
| **Əlaqəli tərəfə ödəniləcək kreditlərin cari hissəsi** | | | **17,621,238** | 7,729,503 |

## 12. Faiz hesablanan kreditlər (davamı)

*Cari faizli kreditlər və borclar (davamı)*

| | Ödəmə tarixi | İlkin valyuta | 31 dekabrda qalıq 2013 | 31 dekabrda qalıq 2012 |
|---|---|---|---|---|
| 30 milyon Avro məbləğində AYİB krediti (A1 krediti) | 5 oktyabr 2015 | AVRO | - | 9,919,271 |
| 20 milyon Avro məbləğində AYİB krediti (A2 krediti) | 5 oktyabr 2014 | AVRO | - | 6,941,727 |
| 20 milyon Avro məbləğində AYİB krediti (B1 krediti) | 5 oktyabr 2015 | AVRO | - | 6,612,847 |
| 20 milyon Avro məbləğində AİB[1] krediti | 5 oktyabr 2015 | AVRO | - | 7,539,050 |
| 15 milyon Avro məbləğində DEG[2] krediti | 5 oktyabr 2015 | AVRO | - | 6,073,029 |
| 15 milyon Avro məbləğində OBIF[3] krediti | 5 oktyabr 2015 | AVRO | - | 6,055,618 |
| AYİB kreditləri üzrə hesablanmış faiz və öhdəlik haqqı | | AVRO | - | 318,482 |
| AİB krediti üzrə hesablanmış faiz | | AVRO | - | 139,469 |
| DEG krediti üzrə hesablanmış faiz | | AVRO | - | 94,137 |
| OBIF krediti üzrə hesablanmış faiz | | AVRO | - | 113,075 |
| **Üçüncü tərəflərə ödəniləcək kreditlərin cari hissəsi** | | | - | 43,806,705 |
| ABB[4] kredit xətti | 12 dekabr 2014 | AZN | **100,000** | 100,000 |
| **Digər ödəniləcək qısamüddətli kreditlər** | | | **100,000** | 100,000 |
| **Cəmi qısamüddətli kreditlər** | | | **17,721,238** | 51,636,208 |

[1] Asiya İnkişaf Bankı ("AİB")

[2] Deutsche Investitions – und Entwicklungsgesellschaft mbH ("DEG")

[3] OPEC Beynəlxalq İnkişaf Fondu ("OBIF")

[4] Azərbaycan Beynəlxalq Bankı ("ABB")

## 12. Faiz hesablanan kreditlər (davamı)

*Uzunmüddətli faizli kreditlər və borclar:*

| | Ödəmə tarixi | İlkin valyuta | 31 dekabrda qalıq 2013 | 31 dekabrda qalıq 2012 |
|---|---|---|---|---|
| 20 milyon Avro məbləğində HAB krediti (Baş kredit) | 5 oktyabr 2015 | AVRO | - | 6,878,468 |
| 20 milyon Avro məbləğində HAB krediti (Subordinasiyalı kredit) | Yekun ödəmə tarixi (aşağıya baxın) | AVRO | **13,475,000** | 20,754,000 |
| 30 milyon Avro məbləğində HAB krediti (Subordinasiyalı kredit) | Yekun ödəmə tarixi (aşağıya baxın) | AVRO | **20,212,500** | 31,131,000 |
| HAB kreditləri üzrə hesablanmış faiz | | AVRO | **8,088,615** | 9,325,401 |
| **Əlaqəli tərəfə ödəniləcək kreditlərin uzunmüddətli hissəsi** | | | **41,776,115** | 68,088,869 |
| 30 milyon Avro məbləğində AYİB krediti (A1 krediti) | 5 oktyabr 2015 | AVRO | - | 2,017,150 |
| 20 milyon Avro məbləğində AYİB krediti (A2 krediti) | 5 oktyabr 2015 | AVRO | - | - |
| 20 milyon Avro məbləğində AYİB krediti (B1 krediti) | 5 oktyabr 2015 | AVRO | - | 1,344,767 |
| 20 milyon Avro məbləğində AİB krediti | 5 oktyabr 2015 | AVRO | - | 6,710,094 |
| 15 milyon Avro məbləğində DEG krediti | 5 oktyabr 2015 | AVRO | - | 3,905,517 |
| 15 milyon Avro məbləğində OBIF krediti | 5 oktyabr 2015 | AVRO | - | 3,901,423 |
| **Üçüncü tərəflərdən kreditlərin uzunmüddətli hissəsi** | | | - | 17,878,951 |
| **Cəmi uzunmüddətli kreditlər** | | | **41,776,115** | 85,967,820 |

*AYİB-dən maliyyələşdirmə*

29 sentyabr 2009-cu il tarixində Şirkət 6 saylı sobanın tikintisini (Qeyd 3-ə bax) maliyyələşdirmək məqsədilə AYİB ilə kredit razılaşmasını ("AYİB kredit razılaşması") imzalamışdır. Kredit ilk öncə iki hissədən ibarət idi: 50 milyon Avro məbləğində A1 krediti və 70 milyon Avro məbləğində A2 krediti. 24 iyun 2010-cu il tarixində Şirkət AYİB kredit razılaşmasına 1 saylı düzəliş razılaşması imzalamış və həmin düzəlişə uyğun olaraq A1 krediti, müvafiq olaraq, 30 milyon Avro və 20 milyon Avro məbləğlərində olan A1 və B1 kreditləri arasında bölünmüşdür. 23 avqust 2011-ci il tarixində Şirkət AYİB ilə kredit razılaşmasına 2 saylı düzəliş razılaşmasını imzalamış və həmin razılaşmaya görə A2 krediti 20 milyon Avroyadək azaldılmışdır. A2 kreditində azalma 20 milyon Avro məbləğində yeni AİB krediti, 15 milyon Avro məbləğində DEG krediti, 15 milyon Avro məbləğində OBIF krediti ilə kompensasiya edilmişdir. Nəticədə Şirkət 35,417,000 Avro (39,153,493 AZN) qaytarmış və AİB kredit razılaşması üzrə 20 milyon Avro, DEG və OBIF kredit razılaşmalarının hər biri üzrə 15 milyon Avro istifadə etmişdir.

## 12. Faiz hesablanan kreditlər (davamı)

*Uzunmüddətli faizli kreditlər və borclar (davamı)*

*AYİB-dən maliyyələşdirmə (davamı)*
27 dekabr 2011-ci il tarixində Şirkət AYİB ilə kredit razılaşmasına 3 saylı düzəliş razılaşmasını imzalamış və həmin razılaşmaya görə ilk ödəniş tarixi 5 yanvar 2012-ci il tarixindən 5 iyul 2012-ci il tarixinə keçirilmişdir. A1, A2 və B1 kreditlərinin ödənilməsi A1 və B1 kreditləri üçün 5 oktyabr 2015-ci il tarixindən gec olmayaraq və A2 krediti üçün 5 oktyabr 2014-cü il tarixindən gec olmayaraq bərabər hissələrlə aparılmalıdır. AYİB kredit razılaşması üzrə faiz dərəcəsi EURIBOR+marja kimi hesablanır. Bu marja Baş borcun (AYİB kredit razılaşmasında göstərildiyi kimi) Şirkətin EBITDA (Faiz, vergilər, köhnəlmə və amortizasiyadan əvvəl gəlirlər) göstəricisinə olan nisbətinə bağlıdır.

AYİB kredit razılaşmasına uyğun olaraq 2009-cu ildə Şirkət 3 milyon Avro (3,525,160 AZN) məbləğində geri qaytarılmayan kreditin verilməsi haqqını ödəmişdir. Bu haqq kredit razılaşmasının müddəti üzrə amortizasiya hesablanmış dəyərlə tanınır. 2012-ci il ərzində A1, A2 və B1 kreditləri üzrə effektiv faiz dərəcəsi, müvafiq olaraq, 8.3%, 9.6% və 8.2% olmuşdur. AYİB-in kreditləri 31 dekabr 2013-cü il tarixinə Şirkət tərəfindən tam ödənilmişdir.

*20 milyon Avro məbləğində AİB krediti*
23 avqust 2011-ci il tarixində Şirkət AİB ilə 20 milyon Avro məbləğində kredit razılaşmasını imzalamışdır. AİB ilə kredit razılaşmasına uyğun olaraq Şirkət 2011-ci ildə 200,000 Avro (226,620 AZN) məbləğində qaytarılmayan kreditin verilməsi haqqını ödəmişdir. Bu haqq kredit razılaşmasının müddəti üzrə amortizasiya dəyəri ilə tanınır. AİB kredit razılaşması üzrə faiz dərəcəsi EURIBOR+marja kimi hesablanmışdır. 2012-ci il ərzində AİB krediti üzrə effektiv faiz dərəcəsi 6.3% olmuşdur. Kredit 31 dekabr 2013-cü il tarixinə Şirkət tərəfindən tam ödənilmişdir.

*15 milyon Avro məbləğində DEG krediti*
23 avqust 2011-ci il tarixində Şirkət DEG ilə 15 milyon Avro məbləğində kredit razılaşmasını imzalamışdır. DEG ilə kredit razılaşmasına uyğun olaraq Şirkət 2011-ci ildə 150,000 Avro (171,045 AZN) məbləğində qaytarılmayan kreditin verilməsi haqqını ödəmişdir. Bu haqq kredit razılaşmasının müddəti üzrə amortizasiya dəyəri ilə tanınır. DEG kredit razılaşması üzrə faiz dərəcəsi EURIBOR+marja kimi hesablanmışdır. 2012-ci il ərzində DEG krediti üzrə effektiv faiz dərəcəsi 6.5% olmuşdur. Kredit 31 dekabr 2013-cü il tarixinə Şirkət tərəfindən tam ödənilmişdir.

*15 milyon Avro məbləğində OBIF krediti*
23 avqust 2011-ci il tarixində Şirkət OBIF ilə 15 milyon Avro məbləğində kredit razılaşmasını imzalamışdır. OBIF ilə kredit razılaşmasına uyğun olaraq Şirkət 2011-ci ildə 225,000 Avro (256,568 AZN) məbləğində qaytarılmayan kreditin verilməsi haqqını ödəmişdir. Bu haqq kredit razılaşmasının müddəti üzrə amortizasiya dəyəri ilə tanınır. 2012-ci il ərzində OBIF krediti üzrə effektiv faiz dərəcəsi 7.1% olmuşdur. Kredit 31 dekabr 2013-cü il tarixinə Şirkət tərəfindən tam ödənilmişdir.

AYİB, AİB, DEG, OFİD kredit razılaşmalarına həmçinin Şirkətdən müəyyən maliyyə əmsallarını saxlamağı, ətraf mühit və sosial normalara riayət etməyi, əvvəlcədən müəyyən edilmiş həddən artıq olan əsaslı məsrəflərə AYİB, AİB, DEG, OFİD-in icazəsini almağı tələb edən müxtəlif müsbət və mənfi öhdəliklər, eləcə də bir sıra digər öhdəliklər daxildir. Maliyyə əmsalları öhdəlikləri ödəniş başlayandan, yuxarıda göstərilən digər öhdəliklər isə AYİB, AİB, DEG, OFİD kredit razılaşmaları əsasında vəsaitlərin ilk istifadəsi tarixindən qüvvəyə minir.

*30 milyon Avro məbləğində HAB krediti (Subordinasiyalı kredit)*
8 iyul 2010-cu il tarixində Şirkət HAB ilə 30 milyon Avro məbləğində kredit razılaşması imzalamışdır. Bu kreditin müddəti AYİB A1 kreditinin qalan müddətindən bir il uzundur. 23 avqust 2011-ci il tarixində Şirkət, HAB, AYİB, AİB, DEG və OFİD arasında imzalanmış Düzəliş edilmiş Layihə vəsaitləri və Subordinasiya Razılaşmasına ("LVSR") uyğun olaraq kreditin tamamilə və ya qismən ödənilməsi Baş borc (LVSR-də göstərilir) tam ödənildiyi 7 oktyabr 2013-cü il tarixinənədək təxirə salınır. Kredit 16 bərabər hissə ilə 10 yanvar, 10 aprel, 10 iyul, 10 oktyabr tarixlərində ödənilməlidir. Planlaşdırılmış ödənişlərdən əlavə, 27 dekabr 2013-cü il tarixində Şirkət 3,750,000 Avro (4,040,625 AZN) məbləğində avans ödəniş etmişdir.

## 12. Faiz hesablanan kreditlər (davamı)

*Uzunmüddətli faizli kreditlər və borclar (davamı)*

*20 milyon Avro məbləğində HAB krediti (Subordinasiyalı kredit)*
31 mart 2010-cu il tarixində Şirkət HAB ilə 20 milyon Avro məbləğində kredit razılaşması imzalamışdır. LVSR-ə uyğun olaraq kreditin tamamilə və ya qismən ödənilməsi Baş borc tam ödənilənədək (7 oktyabr 2013-cü il) təxirə salınır. Kredit 16 bərabər hissə ilə 10 yanvar, 10 aprel, 10 iyul, 10 oktyabr tarixlərində ödənilməlidir. Planlaşdırılmış ödənişlərdən əlavə, 27 dekabr 2013-cü il tarixində Şirkət 2,500,000 Avro (2,693,750 AZN) məbləğində avans ödəniş etmişdir.

Yuxarıda göstərilən subordinasiyalı HAB kreditləri əsasında hesablanmış faiz rüblük əsasda 10 yanvar, 10 aprel, 10 iyul və 10 oktyabr tarixlərində ödənilməlidir. LVSR-ə uyğun olaraq faizin ödənilməsi Baş borc tam ödənilənədək ödənilənədək (7 oktyabr 2013-cü il) təxirə salınır. Faizlər 16 bərabər hissə ilə ödənilməlidir. Planlaşdırılmış ödənişlərdən əlavə, 27 dekabr 2013-cü il tarixində Şirkət 1,500,690 Avro (1,616,994 AZN) məbləğində avans ödəmələrini aparmışdır. 31 dekabr 2013-cü il tarixinə ödənilməmiş qalıq 11,324,061 AZN (2012: 9,325,401 AZN) olmuş, bundan 3,235,446 AZN (2012: sıfır) Maliyyə Vəziyyəti haqqında Hesabatda qısamüddətli və 8,088,615 AZN (2012: 9,325,401 AZN) uzunmüddətli qalıq kimi təsnif edilir.

*20 milyon Avro məbləğində HAB krediti (Baş kredit)*
22 avqust 2011-ci il tarixində Şirkət HAB ilə 20 milyon Avro məbləğində kredit razılaşmasını imzalamışdır. Baş kreditin qaytarılması 5 oktyabr 2015-ci il tarixindən gec olmayaraq bərabər hissələrlə aparılacaqdır. Kredit Şirkət tərəfindən 31 dekabr 2013-cü il tarixinə tam ödənilmişdir.

*ABB kredit xətti*
12 dekabr 2005-ci il tarixində Şirkət ABB ilə 10 milyon AZN məbləğində kredit xətti razılaşması imzalamışdır. 2013-cü il ərzində Şirkət hesabdan yeni məbləğ çıxarmamış və ödəniş aparmamışdır və hesablanmış faizin məbləği 14,545 AZN (2012-ci il: 15,999 AZN) olmuşdur. 8 fevral 2013-cü il tarixində Şirkət razılaşmaya düzəliş imzalamış və kredit xəttini 10 milyon AZN-dən 5 milyon AZN-ə qədər azaldılmışdır. Kredit xətti təminatsızdır və faiz dərəcəsi 11%-dir. Kredit xəttinin müddəti 12 dekabr 2014-cü il tarixində başa çatır.

*Yapi Kredi Bank kredit xətti*
22 dekabr 2011-ci il tarixində Şirkət Yapi Kredi Bank ilə 3.9 milyon AZN məbləğində kredit xətti razılaşması imzalamışdır. 31 dekabr 2013-cü və 2012-ci il tarixlərinə Şirkətin kredit xətti üzrə ödənilməmiş qalığı olmamışdır. Kredit xətti təminatsızdır və faiz dərəcəsi 11%-dir. Kredit xəttinin müddəti 5 noyabr 2016-cı il tarixində başa çatır.

## 13. Ehtiyatlar

*Uzunmüddətli ehtiyatlar*

Uzunmüddətli ehtiyatlar aşağıdakılardan ibarətdir:

| | **Sahənin bərpa edilməsi** | **Xəsarət halları üçün ehtiyat** | **Digər vergi xərcləri** | **Cəmi** |
|---|---|---|---|---|
| **31 dekabr 2011-ci il tarixinə** | 1,748,380 | 1,095,749 | - | 2,844,129 |
| İl ərzində istifadə edilmiş | - | (142,890) | - | (142,890) |
| Artma xərci | 94,412 | 57,527 | - | 151,939 |
| Əlavə ehtiyat | 99,665 | 89,382 | 461,121 | 650,168 |
| Qiymətləndirmədə dəyişiklik | 136,335 | 9,610 | - | 145,945 |
| **31 dekabr 2012-ci il tarixinə** | 2,078,792 | 1,109,378 | 461,121 | 3,649,291 |
| İl ərzində istifadə edilmiş | **-** | **(169,750)** | **-** | **(169,750)** |
| Artma xərci | **115,890** | **59,169** | **-** | **175,059** |
| Əlavə ehtiyat | **-** | **698,055** | **346,380** | **1,044,435** |
| Qiymətləndirmədə dəyişiklik | **98,231** | **174,051** | **-** | **272,282** |
| **31 dekabr 2013-cü il tarixinə** | **2,292,913** | **1,870,903** | **807,501** | **4,971,317** |

## 13. Ehtiyatlar (davamı)

*Uzunmüddətli ehtiyatlar (davamı)*

Sahənin bərpa edilməsi ehtiyatı
Azərbaycan Respublikasının "Mineral ehtiyatlar haqqında" qanununa uyğun olaraq Şirkət hasilatdan sonra karxanaların səthini bərpa etməlidir. Şirkət sahənin bərpa edilməsi xərclərinin cari dəyərini 3.3% (2012-ci il: 5.3%) diskont dərəcəsindən istifadə etməklə hesablamışdır. Şirkətin qiymətləndirmələrinə görə, əlaqəli xərclər 2080-2082-ci illərdə çəkiləcəkdir. Diskont edilmiş pul vəsaitləri hərəkətlərinin hesablanmasında aşağıdakı inflyasiya dərəcələri istifadə edilmişdir:

| İl | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 və sonra |
|---|---|---|---|---|---|---|
| İnflyasiya dərəcəsi | 4.26% | 4.66% | 4.56% | 4.45% | 4.34% | 3.00% |

Xəsarət halları üçün ehtiyat
Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq istehsal prosesi zamanı baş vermiş hadisə nəticəsində xəsarət almış və səhhətinə mənfi təsir göstərilmiş (peşəkar xəstəlik) işçilərə bu hadisə və ya xəstəliklə bağlı zərərə görə kompensasiya müvafiq orqanların apardığı istintaq nəticəsində işəgötürənin tam və ya qismən günahkar olması müəyyən edilən zaman ödənilməlidir. Şirkət işçilərə uzunmüddətli xəsarət halları üzrə ödənişlərinin cari dəyərini 3.3% (2012-ci il: 5.3%) diskont dərəcəsindən istifadə etməklə hesablamışdır. Əmək qabiliyyətini itirmiş işçilərə ömrü boyunca ödəniləcək ödənişləri hesablamaq məqsədilə Şirkət kişi və qadınlar üçün, müvafiq olaraq, 71 və 77 il gözlənilən ömür müddətini təxmin edir. Orta əmək haqlarında artmanı hesablamaq üçün Sahənin bərpa edilməsi ehtiyatı üçün istifadə edilən inflyasiya dərəcələri istifadə olunmuşdur.

Rəhbərlik gözləyir ki, əlaqəli xəsarət halları üzrə ödənişlər 31 dekabr 2042-ci ilə qədər davam etdiriləcəkdir.

*Qısamüddətli ehtiyatlar*

Qısamüddətli ehtiyatlar aşağıdakılardan ibarətdir:

| | Bonuslar | Ləğv etmə xərcləri | Cəmi |
|---|---|---|---|
| **31 dekabr 2011-ci il tarixinə** | 2,385,767 | - | 2,385,767 |
| İl ərzində istifadə edilmiş | (1,892,424) | - | (1,892,424) |
| Əlavə ehtiyat | 2,434,841 | 4,220,000 | 6,654,841 |
| **31 dekabr 2012-ci il tarixinə** | 2,928,184 | 4,220,000 | 7,148,184 |
| İl ərzində istifadə edilmiş | **(2,993,032)** | **(262,908)** | **(3,255,940)** |
| Əlavə ehtiyat | **2,591,381** | **-** | **2,591,381** |
| **31 dekabr 2013-cü il tarixinə** | **2,526,533** | **3,957,092** | **6,483,625** |

Ləğv etmə xərcləri köhnə sobaların ləğv edilməsi ilə əlaqədar xərcləri nəzərdə tutur. Yeni sobaların istifadəyə verilməsi ilə bağlı olaraq köhnə sobalarda istehsal tamamilə dayandırılıb. Rəhbərlik hesab edir ki, köhnə sobaların tam ləğvi 2014-cü ilin sonunadək başa çatacaq.

## 14. Ticarət kreditor borcları

31 dekabr 2013-cü və 2012-ci il tarixlərinə ticarət kreditor borcları mal-material ehtiyatlarının, istehsal maşınlarının və avadanlıqların alınması üçün təchizatçılara ödəniləcək məbləğlərdən ibarətdir.

## 15. Hesablanmış öhdəliklər

31 dekabrda qısamüddətli hesablanmış öhdəliklər aşağıdakılardan ibarətdir:

| | 2013 | 2012 |
|---|---|---|
| Üçüncü tərəfə hesablamalar | **10,298,066** | 14,822,840 |
| Digər vergi öhdəlikləri | **3,938,549** | 3,996,813 |
| Digər hesablamalar | **16,780** | 17,570 |
| | **14,253,395** | 18,837,223 |

31 dekabr 2013-cü və 2012-ci il tarixlərinə üçüncü tərəfə hesablamalar əsas etibarı ilə yeni sobanın tikintisi ilə bağlıdır (bax Qeyd 3).

CBMI ilə razılaşmanın şərtlərinə uyğun olaraq Şirkət tikinti müddəti ərzində CBMI tərəfindən yerinə yetirilmiş işlə və təchiz edilmiş mallarla bağlı kəsilmiş cəmi fakturaların əvvəlcədən təyin edilmiş müəyyən faizinin ödənilməsini yeni soba təhvil alınana və tələb olunan sənədlər CBMI tərəfindən təqdim edilənə (bax Qeyd 3) qədər təxirə salacaqdır. 31 dekabr 2013-cü il tarixinə Şirkət 4,495,856 AZN (2012-ci il: 7,262,087 AZN) məbləğini CBMI qarşısında qısamüddətli öhdəlik kimi hesablamışdır.

## 16. Təəhhüdlər və əməliyyat mühiti

*Cari biznes mühiti*

Şirkətin əməliyyatları Azərbaycan Respublikasında həyata keçirilir. Yeni inkişaf edən bazar iqtisadiyyatı dövləti olduğu üçün, Azərbaycanda hal-hazırda daha yetkin bazar iqtisadiyyatına xas olan inkişaf etmiş biznes və tənzimləyici infrastruktur yoxdur.

Azərbaycan Respublikasında iqtisadi şərait inkişaf etsə də, iqtisadi vəziyyətdə yeni yaranmış iqtisadiyyata səciyyəvi xüsusiyyətlər müşahidə olunmaqdadır. Bunlara milli valyutanın bir çox xarici ölkələrdə sərbəst dönərli valyuta hesab edilməməsi və bununla məhdudlaşmayan bu kimi xüsusiyyətlər daxildir. Azərbaycan Respublikasının vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır.

Azərbaycan Respublikasında iqtisadi sabitliyin gələcək perspektivləri Azərbaycan hökumətinin həyata keçirdiyi iqtisadi, maliyyə və monetar tədbirlərin effektivliyindən, eləcə də vergi, hüquqi, normativ və siyasi hadisələrin gedişatından əhəmiyyətli dərəcədə asılıdır. Rəhbərlik Şirkətin əməliyyatlarına təsir göstərə biləcək iqtisadi şəraitdəki bütün dəyişiklikləri və bunların maliyyə vəziyyətinə mümkün təsirini (əgər olarsa) əvvəlcədən proqnozlaşdırmaq iqtidarında deyil.

Azərbaycan iqtisadiyyatı dünyanın digər bölgələrindəki bazar tənəzzülü və iqtisadi inkişaf tempinin aşağı düşməsinə həssasdır. Azərbaycan hökuməti bir sıra sabitləşdirmə tədbirlərini görsə də, Şirkətin maliyyə vəziyyətinə, əməliyyatlarının nəticələrinə və biznes layihələrinə təsir göstərə biləcək və Şirkət və qarşı tərəflər üçün kapitalı əldə etmək imkanı və kapitalın dəyəri ilə bağlı qeyri-müəyyənlik hələ də vardır. Hal-hazırda Şirkətin fəaliyyətinin sabitliyini təmin etmək üçün bütün münasib tədbirləri gördüyündən əmin olan rəhbərliyin fikrinə baxmayaraq, yuxarıda təsvir edilmiş sahələrdə vəziyyətin gözlənilməz dərəcədə pisləşməsi Şirkətin nəticələri və maliyyə vəziyyətinə hazırda dəqiq müəyyən edilə bilməyən mənfi təsir göstərə bilər.

Təqdim olunan maliyyə hesabatlarına həmin qeyri-müəyyənliklərin gələcək aydınlaşdırılması nəticəsində meydana çıxacaq düzəlişlər daxil deyildir. Belə düzəlişlər, mövcud olduğu halda, üzə çıxdığı və qiymətləndirilə bildiyi dövrdə hesabata daxil ediləcəkdir.

Şirkətin maliyyə vəziyyəti Azərbaycanda siyasi dəyişikliklərin, o cümlədən qüvvədə olan və gələcək qanunvericiliyin və vergi normativ aktlarının təsirinə məruz qalmağa davam edəcəkdir. Şirkət əməliyyatları ilə bağlı Azərbaycan Respublikasında analoji müəssisələrlə müqayisədə daha əhəmiyyətli potensial öhdəliklərlə qarşılaşa bilməsini hesab etmir.

## 16. Təəhhüdlər və əməliyyat mühiti (davamı)

*Cari biznes mühiti (davamı)*

Şirkət hesab edir ki, tətbiq edilən bütün vergiləri ödəmiş və ya hesablamışdır. Vergilər üçün ehtiyatın ayrılması təcrübəsi qeyri-müəyyən olduğu bir vəziyyətdə, Şirkət vergi öhdəliklərini rəhbərliyin ən yaxşı qiymətləndirməsi əsasında hesablamışdır. Şirkətin siyasəti potensial öhdəlikləri zərərin mümkün hesab edilən və məbləğin etibarlı qiymətləndirilə bilən hesabat dövründə hesablamağı nəzərdə tutur.

Azərbaycanın vergi və hüquq sistemləri ilə bağlı qeyri-müəyyənliklərə görə tutulan vergi, cərimə və faizlərin yekun məbləği (əgər olarsa) hazırkı tarixədək xərclənmiş və hesablanmış məbləğdən artıq ola bilər.

*Ətraf mühitin mühafizəsi ilə bağlı öhdəlik*

Hazırda Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsi haqqında qanunvericilik təkmilləşdirilir və ona əməl olunması ilə bağlı hökumət orqanlarının mövqeyinə yenidən baxılır. Şirkət, ətraf mühitin mühafizəsi ilə bağlı öhdəliklərini mütəmadi olaraq qiymətləndirir. Öhdəliklər müəyyən edildikcə dərhal uçota alınır. Mövcud qanunvericiliyin və normativ aktların dəyişməsi nəticəsində yarana bilən, eləcə də məhkəmə praktikası nəticəsində kifayət qədər dəqiqliklə qiymətləndirilə bilməyən potensial öhdəliklər əhəmiyyətli ola bilər. Rəhbərlik hesab edir ki, ətraf mühitə zərər vurulması ilə bağlı Şirkət tərəfindən ətraf mühitin bərpası öhdəliyi üzrə yaradılmış ehtiyatdan artıq əhəmiyyətli öhdəliklər mövcud deyil (Qeyd 13).

*Məhkəmə prosesləri*

Fəaliyyətin adi gedişində Şirkət məhkəmə araşdırmaları, iddialar, istintaqlar və proseslərə, o cümlədən vergi, ətraf mühitin qorunması və antiinhisar məsələləri ilə bağlı proseslərə cəlb olunur.

Rəhbərlik hesab edir ki, Şirkətin fəaliyyətinə, maliyyə vəziyyətinə və ya əməliyyatlarının nəticələrinə mühüm mənfi təsir göstərən belə məsələlər yoxdur.

## 17. Əlaqəli tərəflərlə əməliyyatlar

31 dekabrda əlaqəli tərəflərdən alınacaq / tərəflərə ödəniləcək məbləğlər aşağıdakı kimi olmuşdur:

| | **Əlaqəli tərəflərdən alınacaq məbləğlər** | | **Əlaqəli tərəflərə ödəniləcək məbləğlər** | |
|---|---|---|---|---|
| | **2013** | 2012 | **2013** | 2012 |
| Holcim Qrup Sapport Ltd ("HQRS") | **-** | - | **-** | 1,710,339 |
| Holcim LTD | **106,047** | 173,455 | **-** | - |
| Holcim Technology LTD | **-** | - | **2,651,279** | - |
| Holcim Emerging Europe Service | **-** | - | **411,432** | - |
| Holcim Services EMEA, S.L | **-** | - | **603,464** | - |
| Holcim (Bulgaria) AD | **-** | - | **80,355** | - |
| Holcim Espana S.A. | **-** | - | **69,582** | - |
| Holcim Philippines | **-** | - | **69,713** | 69,713 |
| Holcim Slovensko A.S. | **-** | - | **20,344** | 20,344 |
| Digər Holcim müəssisələri | **49,087** | - | **21,294** | 2,384 |
| | **155,134** | 173,455 | **3,927,463** | 1,802,780 |
| HAB kreditləri – əsas borc | **-** | - | **47,162,500** | 66,353,502 |
| HAB kreditləri – qısamüddətli faiz | **-** | - | **4,146,238** | 139,469 |
| HAB kreditləri – uzunmüddətli faiz | **-** | - | **8,088,615** | 9,325,401 |
| | **-** | - | **59,397,353** | 75,818,372 |

## 17. Əlaqəli tərəflərlə əməliyyatlar (davamı)

2,651,279 AZN məbləğində qalıq 2,573,277 AZN (2012: sıfır) və 78,002 AZN (2012: sıfır) məbləğində, müvafiq olaraq, beynəlxalq françiza haqqı və idarəetmə xidmətləri üçün Holcim Technology-yə hesablanmış məbləğdən ibarətdir. 31 dekabr 2013-cü il tarixində başa çatan il ərzində Şirkətin Holcim Technology ilə beynəlxalq françiza haqqı və idarəetmə xidmətləri ilə bağlı əməliyyatları, müvafiq olaraq, 5,324,267 AZN (2012: sıfır) və 536,191 AZN (2012: sıfır) məbləğində olmuşdur.

31 dekabr 2012-ci il tarixinə 1,710,339 AZN məbləğində qalıq 623,030 AZN, 816,607 AZN və 270,702 AZN məbləğində, müvafiq olaraq, HQRS idarəetmə haqqı, ticarət nişanı haqqı və yeni soba xəttinin tikintisi ilə bağlı HQRS tərəfindən yerinə yetirilmiş xidmətlər üçün hesablanmış məbləğdən ibarətdir. 31 dekabr 2012-ci il tarixində başa çatan il ərzində Şirkətin HQRS ilə idarəetmə haqqı, ticarət nişanı haqqı və tikinti xidmətləri ilə bağlı əməliyyatları, müvafiq olaraq 1,855,205 AZN, 816,607 AZN və 1,878,014 AZN məbləğində olmuşdur.

411,432 AZN (2012: sıfır) məbləğində qalıq məsrəflərin bölüşdürülməsi haqqı (Holcim Emerging Europe Service tərəfindən Şirkətə bölüşdürülmüş xərcləri) üçün Holcim Emerging Europe Service şirkətinə hesablanmış məbləğdən ibarətdir. 31 dekabr 2013-cü il tarixində başa çatmış il ərzində Şirkətin Holcim Emerging Europe Service ilə əməliyyatları 900,229 AZN (2012: sıfır) məbləğində olmuşdur.

603,464 AZN (2012: sıfır) məbləğində qalıq Avropa Biznes Modeli ("ABM") layihə xərcləri üçün Holcim Services EMEA şirkətinə hesablanmış məbləğdən ibarətdir. 31 dekabr 2013-cü il tarixində başa çatmış il ərzində Şirkətin Holcim Services EMEA ilə əməliyyatları 1,563,539 AZN (2012: sıfır) məbləğində olmuşdur.

HAB kreditləri ilə bağlı əməliyyatlar maliyyə hesabatları ilə bağlı Qeyd 12-də açıqlanır.

*Rəhbər işçilərə ödənişlər*

Əsas rəhbər işçilər 31 dekabr 2013-cü il və 31 dekabr 2012-ci il tarixlərinə, müvafiq olaraq, cəmi 5 və 4 nəfərdən ibarət olmuşdur. Əsas rəhbər işçilərə ödənişlər, o cümlədən mükafatlar 2013-cü və 2012-ci illər üçün müvafiq olaraq, təqribən 1,713,367 AZN və 1,990,976 AZN təşkil etmişdir.

## 18. Maliyyə riskinin idarə edilməsinin məqsəd və qaydaları

Şirkətin əsas maliyyə öhdəlikləri ticarət kreditor borcları, hesablanmış öhdəliklər, əlaqəli tərəfə və üçüncü tərəflərə ödəniləcək kreditlərdir. Bu maliyyə öhdəliklərinin əsas məqsədi Şirkətin əməliyyatları və tikinti üçün maliyyələşdirmə əldə etməkdir. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və ticarət debitor borcları Şirkətin birbaşa əməliyyatlarından əldə olunan maliyyə aktivlərindən ibarətdir.

Şirkət hesab edir ki, təqdim olunmuş maliyyə hesabatlarında əks etdirilmiş məbləğlər onların ədalətli dəyərini məntiqi dərəcədə qiymətləndirir. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, kreditor borcları, debitor borcları və digər cari monetar aktivlər və öhdəliklərin ədalətli dəyəri, onların qısamüddətli olduğunu nəzərə alaraq, təxminən həmin aktiv və öhdəliklərin balans dəyərinə bərabərdir. Əlaqəli və üçüncü tərəflərdən alınmış borc vəsaitlərinin balans dəyəri ədalətli dəyərə yaxındır, çünki, bu borc vəsaitləri üzrə faiz dərəcələri birbaşa bazar göstəricilərinə bağlıdır (2012-ci il üçün bazar dərəcəsinə yaxın olan 5% dərəcəsi ilə təsbit olunmuş OBIF krediti istisna olmaqla). 31 dekabr 2013-cü il və 2012-ci il tarixlərinə bu borc vəsaitlərinin məbləği, onların hesablanmış ədalətli dəyərindən əhəmiyyətli dərəcədə fərqlənmirdi.

Şirkətin maliyyə alətlərindən irəli gələn əsas risklər – xarici valyuta riski, likvidlik riski, kredit riski və faiz dərəcəsi riskidir. Rəhbərlik, aşağıda icmal edilən bu risklərin hər birinin idarə edilməsi üçün qaydaları nəzərdən keçirir və razılaşdırır:

- Bazar riski – maliyyə alətinin gələcək pul vəsaitləri hərəkətlərinin ədalətli dəyərinin bazar qiymətlərindəki dəyişikliklərə görə dəyişməsi riskidir. Bazar qiymətləri aşağıdakı risk növlərindən ibarətdir: valyuta riski və faiz dərəcəsi riski.
- Kredit riski – qarşı tərəflərin maliyyə aləti və ya müştəri müqaviləsi əsasında öhdəliklərini yerinə yetirməməsi və nəticədə maliyyə zərərinin yaranması riskidir.
- Likvidlik riski – müqavilə ilə nəzərdə tutulmuş qalan ödəmə müddətini göstərən maliyyə öhdəlikləri üçün ödəmə müddətinin təhlilini və Şirkət tərəfindən məxsusi likvidlik riskinin necə idarə edilməsinin təsvirini təmsil edir.

## 18. Maliyyə riskinin idarə edilməsinin məqsəd və qaydaları (davamı)

*Xarici valyuta riski*

Xarici valyuta riski – maliyyə alətinin ədalətli dəyərinin və ya gələcək pul vəsaitləri hərəkətlərinin xarici valyuta məzənnələrində dəyişikliklərə görə tərəddüd etməsi riskidir.

Şirkətin əməliyyatları əsas etibarı ilə Azərbaycan Respublikasında həyata keçirildiyi üçün əməliyyatların əhəmiyyətli hissəsi AZN ilə aparılır.

Şirkətin xarici valyuta dərəcələrində dəyişikliklərə məruz qalması riski ilk növbədə Şirkətin funksional valyutadan fərqli olan valyuta ilə ifadə edilmiş tikinti əməliyyatları, əməliyyat fəaliyyəti və digər borc vəsaitləriylə bağlıdır. Xarici valyuta riski, xüsusi olaraq, pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, hesablanmış öhdəliklər, ticarət və digər kreditor borcları, o cümlədən HAB-a ödəniləcək uzunmüddətli kreditlərdən ibarətdir.

Şirkət xarici valyuta ilə ifadə edilmiş maliyyə alətlərini hedc etməmişdir.

Şirkətin həssaslıq təhlili 31 dekabr 2013-cü və 2012-ci il tarixlərinə Şirkətin xalis əməliyyat riski əsasında müəyyən edilmişdir.

Aşağıdakı cədvəllər, bütün digər göstəricilərin sabit qalması şərti ilə, Şirkətin vergidən əvvəl mənfəətinin ABŞ dollarının, Avronun, Rusiya rublunun, İsveçrə frankının və Böyük Britaniya funtunun məzənnəsində məntiqi dərəcədə mümkün dəyişikliyə olan həssaslığını göstərir (monetar aktivlər və öhdəliklərin ədalətli dəyərində dəyişikliklərə görə). Şirkətin kapitalına əhəmiyyətli təsir yoxdur:

| | **Valyuta məzənnəsində dəyişiklik** | | **Vergidən əvvəl mənfəətə təsir** | |
|---|---|---|---|---|
| **2013** | **Artma** | **Azalma** | **Artmadan sonra** | **Azalmadan sonra** |
| ABŞ dolları | **10%** | **10%** | **(54,005)** | **54,005** |
| Avro | **10%** | **10%** | **(6,616,551)** | **6,616,551** |
| Rusiya rublu | **10%** | **10%** | **(255)** | **255** |
| İsveçrə frankı | **10%** | **10%** | **(265,590)** | **265,590** |
| Böyük Britaniya funtu | **10%** | **10%** | **(429)** | **429** |

| | **Valyuta məzənnəsində dəyişiklik** | | **Vergidən əvvəl mənfəətətəsir** | |
|---|---|---|---|---|
| **2012** | **Artma** | **Azalma** | **Artmadan sonra** | **Azalmadan sonra** |
| ABŞ dolları | 10% | 10% | (80,996) | 80,996 |
| Avro | 10% | 10% | (14,584,296) | 14,584,296 |
| Rusiya rublu | 10% | 10% | (694) | 694 |
| İsveçrə frankı | 10% | 10% | (176,159) | 176,159 |
| Böyük Britaniya funtu | 10% | 10% | (560) | 560 |

*Faiz dərəcəsi riski*

Şirkətin faiz dərəcəsində dəyişiklik riskinin həcmi 31 dekabr 2013-cü il tarixinə ödənilməli olan HAB kreditləri və 31 dekabr 2012-ci il tarixinə ödənilməli olan AYİB, AİB, DEG və HAB kreditlərindən irəli gəlir. Əlaqəli faiz xərci 12-ci Qeyddə müzakirə olunan EURIBOR + marja əsasında hesablanmışdır.

Şirkətin faiz dərəcəsindəki dəyişikliyə həssaslığının təhlili rəhbərlik tərəfindən məntiqi hesab olunan mümkün dəyişikliyin qiymətləndirilməsi olan EURIBOR-da 0.1% (2012-ci il: 0.1%) dəyişiklik əsasında müəyyən edilmişdir.

## 18. Maliyyə riskinin idarə edilməsinin məqsəd və qaydaları (davamı)

*Faiz dərəcəsi riski (davamı)*

Aşağıdakı cədvəldə 31 dekabr 2013-cü və 2012-ci il tarixlərinə EURIBOR-da, +/-0.1% dəyişikliyin vergidən əvvəl mənfəətə təsiri icmal edilir. Şirkətin kapitalına əhəmiyyətli təsir yoxdur:

| | Dəyişən dərəcədə dəyişiklik | | Vergidən əvvəl mənfəətə təsir | |
|---|---|---|---|---|
| **2013** | **Artma** | **Azalma** | **Artmadan sonra** | **Azalmadan sonra** |
| EURIBOR | **0.1%** | **(0.1)%** | **(52,832)** | **52,832** |

| | Dəyişən dərəcədə dəyişiklik | | Vergidən əvvəl mənfəətə təsir | |
|---|---|---|---|---|
| **2012** | **Artma** | **Azalma** | **Artmadan sonra** | **Azalmadan sonra** |
| EURIBOR | 0.1% | (0.1)% | (145,078) | 145,078 |

*Kredit riski*

Kredit riskinə və ya qarşı tərəflərin öhdəliklərini yerinə yetirməməsi riskinə kreditlərin təsdiqlənməsi, limitlər və monitorinq prosedurlarını tətbiq etməklə nəzarət edilir. Şirkətin kredit riskinin həcmi 31 dekabr 2013-cü və 2012-ci il tarixlərinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinin və digər ticarət debitor borclarının məcmu qalığı ilə təmsil olunur. Şirkət bütün debitor hesablarının vəziyyətini nəzərdən keçirmək üçün vaxtaşırı iclas keçirən Kredit Komitəsini yaratmışdır. Şirkət yalnız tanınmış, krediti ödəmək qabiliyyətinə malik olan üçüncü tərəflərlə əməkdaşlıq etdiyi üçün ticarət debitor borcları ilə bağlı riski aşağı səviyyədə qiymətləndirmişdir. Şirkətin siyasətinə uyğun olaraq kredit şərtlərindən istifadə etmək arzusunda olan bütün müştərilər kreditin nəzarət edilməsi prosedurlarından keçməlidirlər.

Dəyərsizləşməyə ehtiyac hər maliyyə vəziyyəti haqqında hesabat tarixində mühüm müştərilər üçün fərdi əsasla təhlil edilir. Bundan əlavə, çoxlu sayda kiçik debitor borcları homogen qruplarda birləşdirilir və dəyərsizləşmə məqsədilə ümumi şəkildə qiymətləndirilir. Hesablama faktiki tarixi məlumatlara əsaslanır. Maliyyə vəziyyəti haqqında hesabat tarixində kredit riskinin maksimum həcmi Qeyd 8 və Qeyd 10-da açıqlanan maliyyə aktivlərinin hər bir sinfinin balans dəyəridir. Şirkət təminat kimi girov saxlamır.

Aşağıdakı cədvəldə 31 dekabrda ödəniş vaxtı ötmüş, lakin, dəyərsizləşməmiş ticarət və digər debitor borcları vaxt sinifləri üzrə təhlil edilir:

| | **Ödəniş vaxtı ötməmiş** | **30-90 gün** | **90-180 gün** | **180-360 gün** | **360 gündən çox** |
|---|---|---|---|---|---|
| **2013** | **918,779** | **2,553,603** | **2,588,833** | **5,640** | **-** |
| 2012 | 980,590 | 33,510 | 17,210 | 1,320 | - |

Aşağıdakı cədvəldə 31 dekabrda bank hesablarında qalıqlar göstərilir:

| | **2013** | 2012 |
|---|---|---|
| ABB | **727,543** | 4,096,345 |
| Yapi Kredi Bank | **1,031,905** | 11,399,929 |
| Bank Standard | **1,376,377** | 7,604,586 |
| PAŞA Bank | **618,481** | 847,330 |
| Ekspress Bank | **54,220** | 249,627 |
| ƏDV üzrə depozit hesabı | **742,104** | 1,400,827 |
| | **4,550,630** | 25,598,644 |

Şirkət öz pul vəsaitlərini Azərbaycan Respublikasında nüfuzlu maliyyə təşkilatlarında yerləşdirir. Şirkət hər hansı qarşı tərəfin öz öhdəliklərini yerinə yetirməyəcəyini gözləmir.

## 18. Maliyyə riskinin idarə edilməsinin məqsəd və qaydaları (davamı)

*Likvidlik riski*

Şirkət vəsaitlərin çatışmazlığı riskinə müntəzəm olaraq xalis maliyyə borcu göstəricisini nəzərdən keçirməklə nəzarət edir. Xalis maliyyə borcu cəmi maliyyə öhdəlikləri ilə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri arasında fərqi təmsil edir.

Şirkətin məqsədi bank overdraftlarını istifadə etməklə maliyyələşdirmənin fasiləsizliyi və çevikliyi arasında tarazlığı saxlamaqdır.

Aşağıdakı cədvəldə Şirkətin 31 dekabr 2013-cü və 2012-ci il tarixlərinə müqavilə ilə nəzərdə tutulmuş diskont edilməmiş ödənişlər əsasında maliyyə öhdəliklərinin müddətləri təsvir edilir.

| 31 dekabr 2013-cü ildə başa çatan il | Tələb əsasında | 3 aydan az | 3-12 ay | 1-5 il | 5 ildən çox |
|---|---|---|---|---|---|
| Əlaqəli tərəfə ödəniləcək hesablanmış faiz | - | 1,708,494 | 4,641,176 | 11,486,167 | - |
| Əlaqəli tərəfə ödəniləcək kreditlər | - | 3,368,750 | 10,106,250 | 33,687,500 | - |
| Üçüncü tərəflərə ödəniləcək hesablanmış faiz | - | - | - | - | - |
| Üçüncü tərəflərə ödəniləcək kreditlər | - | - | - | - | - |
| Ticarət kreditor borcları | - | 4,559,268 | - | - | - |
| Hesablanmış öhdəliklər | 16,780 | 13,976,907 | 505,770 | - | - |
| Əlaqəli tərəflərə ödəniləcək hesablanmış öhdəliklər | - | 3,927,463 | - | - | - |
| Ödəniləcək dividendlər | 17,782 | - | - | - | - |
| Ödəniləcək digər qısamüddətli kreditlər | - | - | 100,000 | - | - |
| Ödəniləcək qısamüddətli kreditlər üzrə hesablanmış faiz | - | 2,750 | 8,250 | - | - |
| Uzunmüddətli hesablanmış öhdəliklər | - | - | - | 1,243,188 | - |
| | **34,562** | **27,543,632** | **15,361,446** | **46,416,855** | **-** |

| 31 dekabr 2012-ci ildə başa çatan il | Tələb əsasında | 3 aydan az | 3-12 ay | 1-5 il | 5 ildən çox |
|---|---|---|---|---|---|
| Əlaqəli tərəfə ödəniləcək hesablanmış faiz | - | 139,469 | 273,723 | 17,577,093 | 7,616,350 |
| Əlaqəli tərəfə ödəniləcək kreditlər | - | 3,142,749 | 4,447,286 | 39,306,594 | 19,456,875 |
| Üçüncü tərəflərə ödəniləcək hesablanmış faiz | - | 665,162 | 1,155,874 | 459,944 | - |
| Üçüncü tərəflərə ödəniləcək kreditlər | - | 17,062,753 | 26,411,887 | 18,474,271 | - |
| Ticarət kreditor borcları | - | 2,260,539 | - | - | - |
| Hesablanmış öhdəliklər | 17,570 | 18,767,456 | 52,197 | - | - |
| Əlaqəli tərəflərə ödəniləcək hesablanmış öhdəliklər | - | 1,802,780 | - | - | - |
| Ödəniləcək dividendlər | 17,782 | - | - | - | - |
| Ödəniləcək digər qısamüddətli kreditlər | - | - | 100,000 | - | - |
| Ödəniləcək qısamüddətli kreditlər üzrə hesablanmış faiz | - | 4,000 | 12,000 | - | - |
| Uzunmüddətli hesablanmış öhdəliklər | - | - | - | 1,963,675 | 846,261 |
| | **35,352** | **43,844,908** | **32,452,967** | **77,781,577** | **27,919,486** |

## 19. Kapitalın idarə edilməsi

Kapitalın idarə edilməsində Şirkətin ilkin məqsədi öz fəaliyyətini dəstəkləmək və səhmdar dəyərini artırmaq üçün möhkəm kredit reytinqinin və sağlam kapital əmsallarının saxlanmasını təmin etməkdir.

Şirkət iqtisadi şəraitdə dəyişiklikləri və nəzərdə tutulan aktivlərin risk xüsusiyyətlərini nəzərə almaqla, kapital strukturunu idarə edir və onda düzəlişlər aparır. Kapitalın strukturunu saxlamaq və ya düzəliş etmək məqsədilə Şirkət müvafiq kredit razılaşmalarının yol verdiyi hədlər daxilində, bazarda əlavə borc vəsaitlərini əldə edə, səhmdarlara dividend ödənişləri məbləğinə düzəlişlər edə və ya yeni səhmlər buraxa bilər.

Şirkət, xalis maliyyə borcunu cəmi kapitala bölməklə müəyyən edilən ödəmə qabiliyyəti əmsalından istifadə etməklə kapitala nəzarət edir. Maliyyə öhdəliklərinin hesablanması üçün Şirkət yalnız maliyyə təşkilatlarından və əlaqəli tərəflərdən alınmış faiz hesablanan kreditləri nəzərə alır. 2013-cü və 2012-ci illər ərzində Şirkətin siyasəti ödəmə qabiliyyəti əmsalını 100%-dən artıq olmayan həddə saxlamaq olmuşdur.

| | **2013** | 2012 |
|---|---|---|
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalenti | **4,550,630** | 25,598,644 |
| Cəmi maliyyə öhdəlikləri | **59,497,353** | 137,604,028 |
| **Xalis maliyyə borcu** | **54,946,723** | 112,005,384 |
| Cəmi kapital | **279,026,552** | 227,438,484 |
| **Ödəmə qabiliyyəti əmsalı %** | **19.69%** | 49.25% |

## 20. Satışın maya dəyəri

Satışın maya dəyəri aşağıdakılardan ibarət olmuşdur:

| | **2013** | 2012 |
|---|---|---|
| İstehsal materialları | **14,939,131** | 15,864,536 |
| Yanacaq xərcləri | **10,651,468** | 10,104,444 |
| Texniki xidmət xərcləri | **5,398,574** | 4,779,021 |
| Elektrik xərcləri | **7,143,724** | 6,669,850 |
| İşçilərlə bağlı xərclər | **7,047,573** | 6,297,267 |
| Köhnəlmə | **16,013,662** | 13,119,578 |
| Ləğv etmə xərcləri üçün ehtiyat | **-** | 4,220,000 |
| Əmlak vergisi xərcləri | **2,675,821** | 2,928,152 |
| Digər istehsal xərcləri | **5,163,762** | 3,416,206 |
| | **69,033,715** | 67,399,054 |

## 21. Çatdırılma xərcləri

Çatdırılma xərcləri aşağıdakılardan ibarət olmuşdur:

| | **2013** | 2012 |
|---|---|---|
| Üçüncü tərəfdən nəqliyyat xidməti | **9,228,615** | 8,437,542 |
| Qablaşdırma materialları | **3,646,496** | 3,492,229 |
| İşçilərlə bağlı xərclər | **1,960,558** | 2,215,479 |
| Köhnəlmə | **679,151** | 562,718 |
| Dizel və benzin | **123,656** | 119,472 |
| Digər xərclər | **903,776** | 761,753 |
| | **16,542,252** | 15,589,193 |

## 22. Ümumi və inzibati xərclər

Ümumi və inzibati xərclər aşağıdakılardan ibarət olmuşdur:

| | **2013** | 2012 |
|---|---|---|
| İşçilərlə bağlı xərclər | **4,869,942** | 4,682,730 |
| Üçüncü tərəfin xidmətləri | **2,744,095** | 1,147,524 |
| İdarəetmə haqqı | **6,320,340** | 3,211,161 |
| Köhnəlmə | **150,247** | 211,384 |
| Digər xərclər | **656,650** | 492,702 |
| | **14,741,274** | 9,745,501 |

## 23. Maliyyə xərcləri

Maliyyə xərcləri aşağıdakılardan ibarət olmuşdur:

| | **2013** | 2012 |
|---|---|---|
| Faiz xərci | **6,023,314** | 8,194,906 |
| Bank komissiyaları | **449,246** | 188,047 |
| Artma xərci | **175,059** | 151,939 |
| | **6,647,619** | 8,534,892 |